22 fevral 2023 №14 (1983)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanla Dağıstan arasında qarşılıqlı mədəni tədbirlər təşkil olunacaq

Fevralın 20-də Bakıda Azərbaycan və Dağıstan arasında əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair 2023-2025-ci illər üçün Tədbirlər Planı imzalanıb.

Tədbirlər Planına uyğun olaraq, tərəflər Dağıstanda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsinə, Azərbaycanda isə Dağıstanın Xalq şairi Rəsul Həmzətovun anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlərin keçirilməsi barədə razılığa gəliblər.

səh. 2

## “Yeni adlar” layihəsi yeni mövsümdə də davam edir

Mədəniyyət Nazirliyinin 2022-ci ildən həyata keçirdiyi “Yeni adlar” musiqi layihəsi bu il də davam edir.

Müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə xidmət edən layihə bu il Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunur. Gənc ifaçıların tanınmış dirijorların rəhbərliyi altında simfonik, kamera və xalq çalğı alətləri orkestrləri ilə konsertlərinin keçirilməsi onların sənət yolunda inkişafına mühüm zəmin yaradır.

Layihənin yeni mövsümdə ilk konserti fevralın 17-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşdi.

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər və digər qonaqlar vardı.

davamı səh. 3-də

## Arif babanın “Azərbaycan nağılı”...

Kiçik çillənin Boz aya məğlub olmağına sayılı günlər qalmış, qışın ən sərt ayı sayılan fevralın 17-də nənələrimizin bizə isti ocaq başında söylədikləri nağılları bu dəfə rənglər aləminə bürünmüş şəkildə Azərbaycan Milli Xalça Muzeyində dinləməyə (izləməyə) gedirik. Bu səfər nağılı bizə nənə deyil, baba danışacaq. Arif baba. O, Arif baba ki Xalq rəssamıdır və yaradıcılığında nağılçılıq aydın görünür. Nə çəkir-çəksin, əsərlərindən bir nağıl ovqatı boy verir.




Yaradıcılığı xalqın yaşamı, folkloru ilə sıx bağlı olduğu üçün Arif Hüseynov hər kəsə doğmadır. Bu səbəbdən də onu uşaqdan böyüyə hamı sevir. Axı uşaq da, böyük də həyatda həmişə nağıllardakı möcüzəyə inanır. Biz də möcüzəyə inam hissi ilə hələ günlər öncə xəbərini aldığımız sərginin məkanına gəlib çatdıq...

davamı səh. 5-də

## İlaxır çərşənbələrin ilki



Xalq təqviminə görə, Kiçik çillə fevralın 19-da özü yerini Boz aya verdi. Fevralın 20-dən xalqımız Novruz bayramının müjdəçiləri olan dörd ilaxır çərşənbəni (Su, Od, Yel, Torpaq) qeyd etməyə başlayır.

Fevralın 21-də el arasında “əzəl çərşənbə”, “gözəl çərşənbə”, “gül çərşənbə” və s. adlandırılan Su çərşənbəsi idi.

Bununla bağlı bölgələrdə müxtəlif mərasimlər təşkil edilib. Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Salyan rayon Mədəniyyət Mərkəzinin 1 və 2 saylı şəhər klublarının əməkdaşları “Murad” Əlillər İctimai Birliyi ilə birgə Su çərşənbəsini qeyd ediblər. Tədbirdə bu çərşənbə ilə bağlı müxtəlif ayinlər icra olunub, xalq yaddaşından süzülüb gələn nəğmələr, bayatılar söylənilib.

mövzunun davamı səh. 7-də

# 6-17: istedad və bacarığına güvənən bütün uşaqlar üçün

### Ölkəmizdə indiyədək miqyası görünməmiş incəsənət festivalı keçiriləcək

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən I Uşaq İncəsənət Festivalı keçiriləcək.

Festivalın keçirilməsində əsas məqsəd Ulu öndər Heydər Əliyevin mədəniyyətə və gənclərə qayğısını rəhbər tutaraq mədəniyyət sahəsində inkişafın təmin edilməsi, uşaqların vətənpərvərlik ruhunda, mədəniyyətə, incəsənətə, adət-ənənələrimizə bağlı tərbiyə olunmasıdır.

Üç mərhələdən ibarət festivalda 6-17 yaş arası şəxslər peşəkar və həvəskar olmaqla iki kateqoriya üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edə bilərlər.

Qeyd olunan yaşlar üzrə incəsənətin və yaradıcılığın müxtəlif növləri və janrları üzrə fəaliyyət göstərən uşaq kollektivləri, dərnəklər, solo ifaçılar, rəqqaslar, bədii qiraətçilər, musiqiçilər, rəssamlar, dekorativ-tətbiqi sənətlə məşğul olan istedadlı uşaqlar da festivala qatıla bilərlər. İştirakçıların qeydiyyatı fevralın 20-dən martın 30-dək www.uif.az internet saytı vasitəsilə aparılacaq.




Ümummilli liderin 100 illiyinə həsr olunan təqdimatlar, rəqəmsal incəsənət nümunələri də daxil olmaqla festival ümumilikdə 21 nominasiya üzrə keçiriləcək.

Festivalın ilk rayon (şəhər) mərhələsi aprel-iyun aylarında keçiriləcək, final mərhələsi sentyabrda Bakıda təşkil olunacaq.

səh. 3

## Muğam ustadının 85 illiyi qeyd olundu

Azərbaycan muğam ifaçılığında özünəməxsus dəst-xətti ilə seçilən, xalq tərəfindən sevilən görkəmli xanəndələrimiz çox olub. Muğamlarımızın mahir ifaçısı və bilicisi, Xalq artisti Arif Babayev də belə ustad sənətkarlardan biridir. Ömrünün böyük hissəsini bu ulu sənətin inkişafına və təbliğinə həsr edən qocaman xanəndə bu il 85 yaşını qeyd edir.

Fevralın 20-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli xanəndə, “Şöhrət”, “İstiqlal” və “Şərəf” ordenli Arif Babayevin yubileyinə həsr olunmuş konsert keçirildi.

Tədbirdə tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər və digər qonaqlar iştirak edirdilər.

Konsertdən əvvəl jurnalistlərə müsahibə verən görkəmli xa-




nəndə sənətinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkür etdi, yubiley gecəsinin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirdi.

davamı səh. 3-də

## Dünyada tələbələrin 40 faizi ana dilində ali təhsil ala bilmir

### Onların arasında Cənubi Azərbaycandakı milyonlarla soydaşımız da var

“Çoxdilli təhsil – təhsilin transformasiyası zərurətdir”. UNESCO 21 fevral – Beynəlxalq Ana Dili Gününün builki mövzusunu belə müəyyən edib.

Əlamətdar gün münasibətilə UNESCO-nun baş direktoru Odre Azule dünya ictimaiyyətinə müraciət edib. Müraciətdə qeyd olunur ki, ana dilində təhsil şəxsiyyətin hərtərəfli inkişafının ayrılmaz tərkib hissəsi və dil irsinin ötürülməsində mühüm vasitədir. Dünyadakı tələbələrin 40 faizinin danışmağı asan hesab etdikləri və ya ən yaxşı başa düşdükləri dildə təhsil almaq imkanı yoxdur. Bu vəziyyət öyrənməyə əhəmiyyətli dərəcədə maneə törədir, eyni zamanda bəşəriyyətin dil irsinə ciddi ziyan vurur. Ona görə də təhsilin transformasiyasının nəzərə alınması zəruridir.

Müraciətdə vurğulanır ki, geniş ictimaiyyəti dünyamızın bənzərsiz və eyni zamanda həssas olan dil və mədəni müxtəlifliyinin dəyəri haqqında maarifləndirmək vacibdir. Axı bəşəriyyətin danışdığı 7000-dən çox dilin hər biri dünyanın, əşyaların, canlıların, xüsusi təfəkkür və hisslərin bənzərsiz obrazlarını daşıyır. Ona görə də hər hansı bir dilin yoxa çıxması əvəzedilməz itkidir. Bu kontekstdə UNESCO-nun rəhbərlik etdiyi Dünyanın Yerli Dillərinin Beynəlxalq Onilliyi (2022-2032) beynəlxalq ictimaiyyətə dünyanın mədəni müxtəlifliyinin mühüm komponentinin qorunub saxlanılması üçün səfərbər olmağa mühüm imkan yaradır.

davamı səh. 2-də

## Türkiyədə zəlzələ 1,3 milyona yaxın insanı ev-eşiyindən edib

### Həlak olanların sayı 42 min 310 nəfərə çatıb...

Türkiyədə əsrin fəlakəti sayılan 6 fevral zəlzələləri nəticəsində həlak olanların sayı 42 min 310 nəfərə çatıb.

Bu barədə fevralın 21-də Türkiyənin Təbii Fəlakət və Fövqəladə Halların İdarəedilməsi Agentliyi – AFAD məlumat yayıb. Agentliyin məlumatına görə, zəlzələ bölgəsindən 448 mindən çox insan təxliyə olunub.

Zəlzələ zonasında dağıntıların təmizlənməsi davam edir və çökmüş binalar altından çıxarılan cəsəd sayı da hər ötən gün artır.

Fevralın 20-də isə axşam saat 20 radələrində Hatayda 6,4 və 5,8 bal gücündə ard-arda daha iki zəlzələ olub. Şəhərin Dəfnə və Samandağ rayonlarında baş verən yeraltı təkanlar nəticəsində daha öncə zəlzələ zamanı qəzalı vəziyyətə düşmüş onlarla bina dağılıb, 6 nəfər həyatını itirib, 18-i ağır olmaqla 200-dən çox insan yaralanıb.



Türkiyədə 6 fevral fəlakəti nəticəsində ümumilikdə 1,3 milyona yaxın insan ev-eşiyindən olub. 865 min nəfər çadır şəhərciklərində, 23 mindən çoxu modul evlərdə, 376 min vətəndaş yataqxanalarda yerləşdirilib. Bunu fevralın 21-də Osmaniyə vilayətinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O bildirib ki, indiyədək zəlzələ zonasında 1 milyon 123 min bina yoxlanılıb. 139 min binanın dağılmış, təcili sökülməli və ağır zədəli olduğu müəyyənləşdirilib.

Ərdoğan mart ayından 11 vilayətdə 200 min evin tikintisi üçün ilk addımın atılacağını deyib. Zəlzələ bölgəsində yeni inşa ediləcək binalar dörd mərtəbədən yüksək olmayacaq. Bundan əlavə, kəndlərdə 70 min ev tikiləcək. O, bir il içərisində kəndlərin yenidən dirçəldiləcəyini vurğulayıb.

Xalq artisti Ramiz Novruz dünyasını dəyişib




səh. 4

Mədəniyyət Nazirliyinin kollektivi Türkiyəyə humanitar yardım göndərib

səh. 3



Brüsseldə “Xocalı: yaralı ruhlar”

səh. 8

№14 (1983)
22 fevral 2023
www.medeniyyet.az

## İlham Əliyev: "Ermənistanın mövqeyində tərəqqi var, ancaq kifayət qədər deyil"

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 18-də Münxendə ABŞ dövlət katibi Entoni Blinken və Ermənistanın hökumət başçısı Nikol Paşinyanla üçtərəfli görüşü zamanı Ermənistan-Azərbaycan sərhədində sərhəd-buraxılış məntəqələrinin yaradılmasını təklif edib.

Dövlət başçısı bu barədə görüşdən sonra televiziya kanallarına müsahibəsində bildirib. İlham Əliyev görüşün konstruktiv keçdiyini deyib: "Bir çox məsələlər müzakirə olundu, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması, sazişin imzalanması üçün lazım olan şərtlərin mövcudluğu. Əlbəttə ki, mən öz mövqeyimi bir daha bildirdim. Əsas məsələ ondan ibarətdir ki, bu sülh müqaviləsi beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməlidir. Qarabağ haqqında hər hansısa müddəanın olması qəbuledilməzdir. Bu haqda da Azərbaycanın mövqeyi bildirildi. Biz üç gün bundan qabaq Ermənistandan bizim təkliflərimizə yeni cavab təklifləri aldıq. İndi onları incələyirik. İlk baxışda Ermənistanın mövqeyində tərəqqi var, ancaq kifayət qədər deyil. Yəni, əsas bu məsələ müzakirə olundu...".

Azərbaycan Prezidenti görüşdə Laçın-Xankəndi yolundakı vəziyyətə də toxunulduğunu deyib: "Mən bir daha Azərbaycanın mövqeyini bildirdim ki, hər hansı bir blokadadan söhbət gedə bilməz. Dekabrın 12-dən bu günə qədər 2500-dən çox yük maşını və Qırmızı Xaç Komitəsinin maşınları keçmişdir və əgər blokada var idisə, bu maşınlar necə keçə bilərdi? Yəni, bu, Azərbaycana qarşı əsassız bir ittihamdır, biz bunu rədd edirik və deyə bilərəm ki, keçirdiyim bütün görüşlərdə bu mövqe anlayışla qarşılanır. O cümlədən Avropa İttifaqı bizim mövqeyimizi anlayır. Biz haqlı olaraq tələb edirik ki, yataqlarımızın qanunsuz istismarı dayandırılsın və buna nail olunmayana qədər əminəm ki, bizim ictimai fəallarımız öz şərəfli missiyasından əl çəkməyəcəklər. Bu gün də bunu çatdırmağa çalışdım. Eyni zamanda bildirdim ki, yaxşı olar, Ermənistan və Azərbaycan ikitərəfli qaydada nəzarət-buraxılış məntəqələrini Ermənistan-Azərbaycan sərhədində yaratsınlar. Biz bu təklifi vermişdik, bu gün rəsmən vermişik. Daha əvvəl bu təklif qeyri-rəsmi kanallar vasitəsilə çatdırılmışdır. Ermənistan tərəfindən hər hansı mövqe səsləndirilmədi. Yəqin ki, onlara bir qədər vaxt lazımdır bunu müzakirə etmək üçün".

Prezident qeyd edib ki, Ermənistan-Azərbaycan sərhədində nəzarət-buraxılış məntəqələrinin yaradılması ölkə arasında əlaqələrin normallaşmasında önəmli amil ola bilər: "Çünki biz sərhədlərin delimitasiyası haqqında danışırıqsa, nəzarət-buraxılış məntəqələri olmadan bu, mümkün deyil. Biz kommunikasiyaların açılması haqqında danışırıqsa, əlbəttə ki, həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda, Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələri yaradılmalıdır. Dövlət katibi Blinkenin iştirakı ilə keçirilən görüşdə mən bunu rəsmən təklif kimi irəli sürdüm. Ermənistan tərəfindən cavab gözləyəcəyik".

## Arif Babayev "Prezidentin fəxri diplomu" ilə təltif olunub

Xalq artisti, ustad xanəndə Arif Babayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Dövlət başçısı İlham Əliyev bununla bağlı fevralın 21-də sərəncam imzalayıb.

Arif İmran oğlu Babayev Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, fevralın 20-də sənətkarın 85 yaşı tamam olub. Ustad xanəndə 1998-ci ildə "Şöhrət" ordeni, 2008-ci ildə "İstiqlal" ordeni, 2018-ci ildə "Şərəf" ordeni ilə təltif edilib. 2010-cu ildə Heydər Əliyev Fondunun "Qızıl çinar" beynəlxalq mükafatına layiq görülüb.

Arif Babayevi əlamətdar yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## Dövlət İmtahan Mərkəzinin rəhbəri "Şərəf" ordeninə layiq görülüb

Prezident İlham Əliyev fevralın 21-də Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Mehdi qızı Abbaszadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

DİM-in sədri Azərbaycanda təhsil sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Məleykə Abbaszadə 1953-cü ildə anadan olub. Texnika elmləri namizədidir, istedadlı uşaq və gənclərin aşkara çıxarılması üçün beynəlxalq təcrübə əsasında yeni tədris metodikaları da daxil olmaqla onlarla elmi məqalənin, ali məktəblər üçün iki dərs vəsaitinin müəllifidir.

1994-cü ildən 2000-ci ilədək Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) sədrinin birinci müavini, 2000-ci ildən 2016-cı ilədək sədr vəzifəsində çalışıb. 2016-cı ildən TQDK-nın bazasında yaradılmış Dövlət İmtahan Mərkəzinə rəhbərlik edir. 2013-cü ildə "Şöhrət" ordeni ilə təltif edilib.

Məleykə Abbaszadəni yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## BXA-da Beynəlxalq Ana Dili Günü



Bakı Xoreoqrafiya Akademiyasının (BXA) tam orta təhsil pilləsinin təşkilatçılığı ilə Beynəlxalq Ana Dili Gününə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə şagirdlər tərəfindən ədəbi dilimizin poetik incəliklərini təcəssüm etdirən şeir nümunələri səsləndirilib, görkəmli Azərbaycan şairləri Mirzə Ələkbər Sabir, Abbas Səhhət və Məhəmmədhüseyn Şəhriyarın obrazları timsalında səhnəciklər, eləcə də milli və klassik rəqs kompozisiyaları nümayiş olunub.

Ümummilli lider Heydər Əliyevin ana dilimizlə bağlı dəyərli fikirlərinin yer aldığı videoçarx nümayiş olunub. Qeyd olunub ki, dil xalqın simasını səciyyələndirən mühüm amillərindən biridir: "Hər bir insan ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, mükəmməl təhsil almasında, ictimaiyyətlə ünsiyyət qurmasında mühüm faktordur. Dil xalqın varlığının təzahürü və qan yaddaşıdır".

Tədbirdə dilimizin zənginliyinə dair Azərbaycanın mütəfəkkir alim və ədiblərinin kəlamlarından sitatlar gətirilib. Sonda BXA-nın Kitabxana-informasiya mərkəzinin təşkilatçılığı ilə Beynəlxalq Ana Dili Gününə həsr olunmuş sərgi nümayiş edilib.

# "Qarabağdakı erməni icması ilə təmaslara başlamağa hazırıq"

### "Lakin bunu o zaman edə bilərik ki, Rusiya vətəndaşı Vardanyan bizim ərazimizi tərk etsin"

Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda çıxışı zamanı söyləyib.

"Bu gün mən bunu dövlət katibi Blinkenin iştirakı ilə erməni həmkarıma bildirdim. Lakin biz buna o halda başlaya bilərik ki, Rusiya vətəndaşı, kriminal oliqarx, Avropada pulların yuyulması ilə məşğul olmuş Ruben Vardanyan ərazimizi tərk etsin", – deyə dövlət başçısı əlavə edib.

Prezident vurğulayıb ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, onlar azlıq təşkil edirlər: "Azərbaycan çoxmillətli ölkədir. Azərbaycandakı bütün azlıqlar bərabər hüquq və imtiyazlara, o cümlədən mədəni, linqvistik və digər hüquqlara malikdirlər, onların təhlükəsizliyi də təmin edilib".



Cənubi Qafqaz regionundakı vəziyyətə nəzər salan İlham Əliyev qeyd edib ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar: "Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər".

Prezident daha sonra deyib: "Amerikalı və Avropa İttifaqından olan tərəfdaşlarımızla ünsiyyət zamanı, habelə dövlət katibi Blinken tərəfindən baş nazir Paşinyanla təşkil edilmiş bugünkü üçtərəfli görüşdən mənə aydın oldu ki, biz hamımız regionda vəziyyətə iki istiqamətli yanaşmanın zəruri olmasını başa düşürük. Birincisi, Azərbaycanla Ermənistan arasında sülh danışıqları istiqaməti, ikincisi, Azərbaycanın Qarabağdakı erməni əhalisi ilə əlaqələri... Beləliklə, bu, iki istiqamətli həll faktiki olaraq bizim Ermənistanla danışıqlarımızı Qarabağdakı ermənilərlə əlaqələrimiz kimi daxili məsələlərimizdən ayırır. Həmçinin bizim beynəlxalq tərəfdaşlarımızla razılaşdırılıb ki, Qarabağdakı erməni azlığın hüquqları və təhlükəsizliyi ilə bağlı müzakirələr aparılacaq. Biz bunu etməyə hazırıq, lakin erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə, Qarabağda Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş (exported) şəxslə deyil. Ola bilsin ki, "ixrac edilmiş" düzgün ifadə deyil, mən yəqin ki, "gizli yolla keçirilmiş" ifadəsini üstün tutardım. Çünki heç kim onun Qarabağda necə peyda olduğunu, İrəvana qayıtmağa, oradan Moskvaya və yenidən İrəvana, sonra isə Qarabağa qayıtmağa necə çalışdığını və buna nail olduğunu bilmir...".

# Azərbaycanla Dağıstan arasında qarşılıqlı mədəni tədbirlər təşkil ediləcək

### Heydər Əliyevin 100 illiyi Dağıstanda, Rəsul Həmzətovun yubleyi Azərbaycanda qeyd olunacaq

Fevralın 20-də Bakıda Azərbaycan və Dağıstan arasında əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair 2023-2025-ci illər üçün Tədbirlər Planı imzalanıb. Bu münasibətlə Azərbaycan Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayev və Dağıstan Respublikası Hökumətinin sədri, komissiyanın həmsədri Abdulmüslüm Abdulmüslümovun görüşü keçirilib.



Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etməsi qeyd olunub. Vurğulanıb ki, iki ölkənin prezidentlərinin səyləri sayəsində dövlətlərarası münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Ş.Mustafayev deyib ki, Azərbaycan Rusiya Federasiyasının 80-ə yaxın subyekti ilə iqtisadi əlaqələr saxlayır. Təqribən 20 subyektlə, o cümlədən Dağıstan Respublikası ilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq barədə sazişlər imzalanıb.

Vurğulanıb ki, eyni dildə danışan, ortaq tarixi, mədəni və mənəvi dəyərlərə malik olan Azərbaycan və Dağıstan xalqları arasında münasibətlər əsrlər boyu formalaşıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Dağıstan xalqları arasında əlaqələrin inkişafında mühüm rolu xüsusi qeyd edilib.

Bildirilib ki, ötən il dekabr ayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Dağıstanın rəhbəri Sergey Melikov arasında keçirilmiş görüşün yekunlarına əsasən, birgə layihələr üçün perspektivli istiqamətlər müəyyən olunub. Tərəflər arasında bu razılaşmaların reallaşdırılması məqsədilə əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair Tədbirlər Planı hazırlanıb. Planda qarşılıqlı ticari-iqtisadi fəaliyyətin inkişafına və investisiyaların daha fəal cəlb edilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycan və Dağıstan xalqları arasında mədəni-humanitar əlaqələrin vacibliyi də vurğulanıb. Qeyd edilib ki, Dağıstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan dağıstanlılar bu respublikaların ictimai-siyasi və mədəni həyatına mühüm töhfələr verirlər.

Tədbirlər Planına uyğun olaraq, tərəflər Dağıstanda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsinə, Azərbaycanda isə Dağıstanın Xalq şairi Rəsul Həmzətovun anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlərin keçirilməsi barədə razılığa gəliblər.

Sənəddə Azərbaycanda və Dağıstanda qarşılıqlı mədəni tədbirlərin təşkil edilməsi, mədəniyyət müəssisələri arasında birbaşa peşəkar və yaradıcı əlaqələrin nizamlanması da nəzərdə tutulur.

Görüşün sonunda Ş.Mustafayev və A.Abdulmüslümov Azərbaycan və Dağıstan arasında əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair 2023-2025-ci illər üçün Tədbirlər Planını imzalayıblar.

# Ölkəmizdə almanların mədəni irsinə qayğı göstərilir

Azərbaycan və Almaniya dost və tərəfdaş ölkələrdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlər siyasi, iqtisadi, ticarət, turizm və digər sahələrdə uğurla inkişaf edir və əlaqələrin bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanlar var. Azərbaycan Almaniya ilə həm ikitərəfli qaydada, həm də Avropa İttifaqı çərçivəsində uğurla əməkdaşlıq edir.

Bu fikirlər fevralın 21-də Milli Məclisin sədri Sahibə Qafarovanın Almaniya Federativ Respublikasının Azərbaycandakı yeni səfiri Ralf Horlemann ilə görüşündə vurğulanıb.

Görüşdə həmçinin ölkələrimiz arasında əməkdaşlığın inkişafında parlamentlərin rolunun əhəmiyyəti, qarşılıqlı səfərlərin və səmərəli dialoqun bu istiqamətdə önəmi ifadə edilib. Vurğulanıb ki, dostluq qrupları müntəzəm dialoq, görüşlər vasitəsilə parlamentlər arasında körpü rolunu oynaya bilərlər.

Sahibə Qafarova Azərbaycanda mövcud olan tolerantlıq, multikultural dəyərlər barədə məlumat verib, 2017-ci ildə Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olduğunu xatırladıb. Bildirilib ki, Azərbaycanda məskunlaşmış almanların mədəni irsinə dövlətimiz tərəfindən qayğı göstərilir. Bu da Azərbaycanda mövcud olan tolerantlıq mühitinin, multikultural dəyərlərin səviyyəsinin bariz göstəricisidir.

Görüşdə Azərbaycanın 2020-ci ildə erməni işğalından azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Azərbaycanın regionda davamlı sülhün əldə olunması istiqamətində səyləri barədə məlumat verilib. Son dövrlər Laçın yolu ətrafında vəziyyətlə bağlı söz açan Milli Məclisin sədri bildirib ki, Ermənistan bu məsələdə beynəlxalq ictimaiyyəti aldatmaq məqsədilə manipulyasiya ilə məşğuldur.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Dünyada tələbələrin 40 faizi ana dilində ali təhsil ala bilmir

### Onların arasında Cənubi Azərbaycandakı milyonlarla soydaşımız da var

*əvvəli səh. 1-də*

Qeyd edək ki, Beynəlxalq Ana Dili Günü UNESCO tərəfindən 1999-cu ildə Banqladeşin təşəbbüsü ilə elan edilib. Bu günün tarixi 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan (həmin vaxt Banqladeş Pakistanın tərkibində idi) dörd tələbənin öldürülməsi ilə bağlıdır. Həmin hadisəni ana dili uğrunda mübarizənin təcəssümü olaraq bəşəriyyətin yaddaşında yaşatmaq üçün bu gün təsis olunub.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il qeyd edilən Beynəlxalq Ana Dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Bu gün dünyada doğma dilindən istifadə etmək imkanları məhdudlaşdırılan, o cümlədən ali təhsil almaq imkanı olmayan insanlar arasında Cənubi Azərbaycandakı milyonlarla soydaşımız da var.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və güclü vasitədir. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. UNESCO baş direktorunun müraciətində vurğulanır ki, insanın təkamülündə böyük rolu olan ana dilinin hər hansı bəhanə ilə qadağan olunması cinayətdir. Beynəlxalq Ana Dili Günü hər kəsi buna qarşı birləşməyə səsləyir.

## "Mənim ana dilim"

Fevralın 21-də Bakı şəhərindəki 328 saylı orta məktəbdə Abdulla Şaiqin Mənzil-Muzeyi ilə birlikdə "Mənim ana dilim" adlı tədbir keçirilib.



Beynəlxalq Ana Dili Günü ilə əlaqədar keçirilən tədbirdə məktəbin şagirdləri və muzeyin nəzdində fəaliyyət göstərən "Vətən" yaradıcılıq dərnəyinin üzvləri müxtəlif ədəbi-bədii sərlövhəli nömrələrlə çıxış ediblər.

Tədbirə Abdulla Şaiqin Mənzil-Muzeyinin əməkdaşları, məktəbin müəllim-şagird kollektivi və digər qonaqlar qatılıb.

# Ömər Eldarova 1-ci dərəcəli “Əmək” ordeni təqdim edilib

Görkəmli heykəltəraş, Xalq rəssamı, akademik Ömər Eldarova 1-ci dərəcəli “Əmək” ordeni təqdim edilib.

Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ömər Eldarov 2022-ci il dekabrın 20-də 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilmişdi.

Sənətkarla Heydər Əliyev Mərkəzində keçirilən görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Emin Əmrullayev, mədəniyyət nazirinin birinci müavini Adil Kərimli, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyev iştirak ediblər.



Ömər Eldarovun Azərbaycan mədəniyyətinin inkişafındakı əvəzolunmaz xidmətləri, onun əsərlərinin milli heykəltəraşlıq sənətinin zənginləşməsində rolu vurğulanıb. Eyni zamanda sənətkarın Azərbaycan Rəssamlıq Akademiyasına rəhbərlik etdiyi illərdə gənc kadrların yetişməsində böyük xidmətləri qeyd olunub.

Ömər Eldarovun Azərbaycan mədəniyyəti və heykəltəraşlıq sənətində xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Xalq rəssamı 1997-ci ildə Ulu öndər Heydər Əliyev tərəfindən “İstiqlal” ordeni ilə təltif edilib. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Şərəf” (2012), 1-ci dərəcəli “Əmək” ordenləri (2022) və ölkəmizin ən ali təltifi olan “Heydər Əliyev” ordeninə (2017) layiq görülüb.

Görkəmli heykəltəraş keçmiş SSRİ-nin (1980) və Azərbaycanın (1982) dövlət mükafatlarının, Heydər Əliyev Mükafatının (2009), MDB-nin “Birliyin ulduzları” mükafatının (2013) laureatıdır.

# Muğam ustadının 85 illiyi qeyd olundu

## Bir neçə nəslin nümayəndələri muğamı Arif Babayevin ifasında dinləyib seviblər



*əvvəli səh. 1-də*

Tədbirdə Mədəniyyət Nazirliyinin kollektivi adından yubilyara ünvanlanan təbrik məktubu oxundu. Məktubda Arif Babayevin zəngin ənənələrə malik Qarabağ muğam məktəbi ustadlarının sənət yolunu uzun illərdir layiqincə davam etdirərək həm bənzərsiz ifası ilə, həm də təcrübəli xanəndə-pedaqoq kimi fəaliyyəti ilə Azərbaycan muğam sənətinə, xalq musiqisinə böyük töhfələr verdiyi vurğulanır. Bildirilir ki, xanəndənin muğam operalarında yaratdığı yaddaqalan obrazlar sənət salnaməmizin parlaq səhifələrini təşkil edir.

Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti, professor Siyavuş Kərimi çıxışında qeyd etdi ki, Arif Babayev mahir muğam ifaçısı kimi təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində və Türk dünyasında şöhrət qazanıb. Onun ifa etdiyi “Şur”, “Rast”, “Bayatı-Şiraz”, “Çahargah”, “Mirzə Hüseyn segahı”, “Zabul segah” və “Segah” muğamları, xalq mahnıları, təsniflər, bəstəkar mahnıları musiqi mədəniyyətimizin xəzinəsinə daxil olub. Arif Babayev müxtəlif illərdə “Leyli və Məcnun”, “Əsli və Kərəm” operalarında Məcnun, Kərəm, “Aşıq Qərib”də Qərib, “Şah İsmayıl”da Şah İsmayıl, “Gəlin qayası”nda Camal rollarının ən mahir ifaçılarından olub.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyev bildirdi ki, bir neçə nəslin nümayəndələri muğamı Arif Babayevin ifası ilə dinləyib seviblər. Azərbaycan muğam ifaçıları arasında ilk dəfə professor elmi adına layiq görülən müğənni məhz Arif Babayevdir. O, hazırda Azərbaycan Milli Konservatoriyasında Muğam kafedrasının müdiridir. Onun tələbələri həm ölkə daxilində, həm də xaricdə muğamımızı uğurla təbliğ edirlər.




Daha sonra tamaşaçıların gur alqış sədaları altında yubilyar səhnəyə dəvət olundu.

Gecədə Xalq artistləri Mənsum İbrahimov, Zabit Nəbizadə, Nəzakət Teymurova, Aygün Bayramova, Əməkdar artistlər Cabir Abdullayev, Təyyar Bayramov, Firuz Səxavət, Zakir Əliyev, Gülüstan Əliyeva, Bəyimxanım Vəliyeva, Səbuhi İbayev, Elnur Zeynalov, Sevinc Sarıyeva, Əməkdar incəsənət xadimi Aqil Məlikov, Əməkdar müəllim Qəzənfər Abbasov, xanəndələr Aytən Məhərrəmova, Vüqar Əliyev, Hüseyn Məlikov, Mirələm Mirələmov, Rəvanə Əmiraslanlı, Günay İmamquluyeva, Xəyal Hüseynov və Orxan Hüseynli ustad xanəndənin repertuarından musiqi nümunələrini səsləndirdilər.

Proqramda B.Kərimovun “Bəxtiyaram mən”, A.Babayevin “Tar-kamanım, gəl-gəl” və “Qurban edim”, “Mahur” təsnifi, xalq mahnısı “Gəl-gəl”, Ü.Hacıbəylinin “Leyli və Məcnun” operasından parça, N.Məmmədovun “Mən dünyada olmayanda”, Ş.Axundovanın “Neyçün gəlməz?”, R.Mustafayevin “Elə bağlıyam”, “Qarabağ şikəstəsi” və digər musiqilər ifa olundu.

İfaçıları Xalq artistləri Firuz Əliyev, Elçin Həşimov (hər ikisi tar), Elşən Mansurov (kamança), Əməkdar artistlər Rauf İslamov, İsmayıl Həmidov, Xəyyam Məmmədov, Elnur Əhmədov (hamısı kamança), Ələkbər Ələkbərov, Əliağa Sədiyev (hər ikisi tar), həmçinin Elman Sadıqov, Rəşad İbrahimov, Altay Niftəliyev (hər üçü tar) və Təbriz Yusubov (kamança) müşayiət edirdilər.

**N.Məmmədli**

## “Muğam axşamları”nda “Bayatı-Qacar” və “Şüştər”

Beynəlxalq Muğam Mərkəzində (BMM) “Muğam axşamları” layihəsi davam edir. Fevralın 17-də keçirilən növbəti konsertdə “Bayatı-Qacar” və “Şüştər” muğamları səsləndi. Muğamları BMM-in solistləri – Əməkdar artist Sevinc Sarıyeva, xanəndələr Rəvanə Qurbanova, Nisbət Sədrayeva və Məmməd Nəcəfov ifa etdilər.



Xanəndələri Rövşən Qurbanov (tar), Ceyhun Bayramov (kamança), Əməkdar artist Tərانə Əliyeva (qanun), Amil Mustafayev (nağara) və Vasif Yusibli (ud) müşayiət edirdilər.

Qeyd edək ki, BMM-də 2017-ci ildən həyata keçirilən “Muğam axşamları” layihəsi Azərbaycan muğamının fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır. Layihənin hər təqdimatı maraqla qarşılanır.

**Lalə**

# “Yeni adlar” layihəsi yeni mövsümdə də davam edir

*əvvəli səh. 1-də*

Konsertdən əvvəl qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Gecədə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Əməkdar artist Fuad İbrahimov) müşayiəti ilə respublika və beynəlxalq müsabiqələr laureatları Canel Nəcəfli (violin), Səid Bağırzadə (klarnet) və Zaur Məmmədov (gitara) öz ifaları ilə musiqisevərlərin könlünü oxşadılar.

Canel Nəcəflinin ifasında V.A.Motsartın “Violin və orkestr üçün 3 nömrəli konsert” (sol major, op.216), Səid Bağırzadənin ifasında K.Veberin “Klarnet və orkestr üçün 1 nömrəli konsert” (fa minor, op.73), Zaur Məmmədovun təqdimatında isə X.Rodriqonun klassik gitara və orkestr üçün “Concierto de aranjues” əsərləri alqışlarla qarşılandı.

***



**Canel Nəcəfli** 2002-ci ildə Bakıda doğulub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində violin ixtisası üzrə təhsil alıb. 2019-cu ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (professor Zəhra Quliyevanın sinfi – qiyabi) və Çexiyanın Plzen Konservatoriyasında (professor Roman Fedçukun sinfi – əyani) həmin ixtisas üzrə təhsilini davam etdirib.

Polşada “Mədəniyyət karvanı” beynəlxalq müsabiqə-festivalı, “Testene art Baku” beynəlxalq müsabiqəsi, Ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunmuş gənc ifaçıların III Respublika müsabiqəsi və Azad Əliyev adına violinçilərin beynəlxalq müsabiqəsində qalib olub. 2021-2022-ci illərdə “Worldvision” beynəlxalq müsabiqəsində Qran-pri mükafatı qazanıb. Azərbaycanın Çexiyadakı Səfirliyinin təşkilatçılığı ilə Zəfər Günümüzə həsr edilmiş solo konserti olub.

***



**Səid Bağırzadə** 2000-ci ildə Bakıda anadan olub. Bülbül adına Orta İxtisas Musiqi Məktəbində oxuyub. 2021-ci ildə Bakı Musiqi Akademiyasını fərqlənmə diplomu ilə bitirib. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Uşaq Filarmoniyası nəzdində Uşaq-gənclər simfonik orkestrinin solisti kimi fəaliyyət göstərib. 2016-cı ildə “Future stars” beynəlxalq müsabiqəsində Qran-pri mükafatına, 2018-ci ildə İslam dünyası gənc klassik musiqi ifaçılarının VII beynəlxalq müsabiqəsində II yerə layiq görülüb. 2019-cu ildə Vaja Çaçava adına III beynəlxalq kamera ansamblı müsabiqəsində I yeri qazanıb.

***



**Zaur Məmmədov** da 2000-ci ildə Bakıda anadan olub. Cövdət Hacıyev adına 3 nömrəli Musiqi məktəbini klassik gitara ixtisası üzrə bitirib. 2021-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bakalavr pilləsini başa vurub. ADMİU-da magistr pilləsi üzrə təhsilini davam etdirir. 2019-cu ildə “Legends of autumn” beynəlxalq incəsənət müsabiqəsində I yerin qalibi olub. 2020-ci ildə isə “Art Olimpia” V beynəlxalq incəsənət müsabiqəsində və “Karabakh” beynəlxalq mədəniyyət və incəsənət müsabiqəsində I yerə layiq görülüb. Həmin il “IMMC” Moskva beynəlxalq musiqi müsabiqəsində III yeri qazanıb.

**Nurəddin**

# Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Uşaq İncəsənət Festivalı keçiriləcək

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Birinci Uşaq İncəsənət Festivalı keçiriləcək.




Festivalın keçirilməsində əsas məqsəd Ulu öndər Heydər Əliyevin mədəniyyətə və gənclərə qayğısını rəhbər tutaraq mədəniyyət sahəsində inkişafın təmin edilməsi, uşaqların vətənpərvərlik ruhunda, mədəniyyətə, incəsənətə, adət-ənənələrimizə bağlı tərbiyə olunmasıdır.

Üç mərhələdən ibarət festivalda 6-17 yaş arası şəxslər peşəkar (sahə üzrə aidiyyəti təhsil müəssisələrində müvafiq təhsil proqramları əsasında təhsil alanlar) və həvəskar (müxtəlif kurslarda, dərnəklərdə və ya fərdi qaydada sahənin mənimsənilməsi ilə məşğul olanlar) olmaqla iki kateqoriya üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) iştirak edə bilərlər.

Festivalda qeyd olunan yaşlar üzrə incəsənətin və yaradıcılığın müxtəlif növləri və janrları üzrə fəaliyyət göstərən kollektivlər, dərnəklər, solo ifaçılar, rəqqaslar, bədii qiraətçilər, musiqiçilər, rəssamlar, dekorativ-tətbiqi sənətlə məşğul olan istedadlı şəxslər də iştirak edə bilərlər. İştirakçıların qeydiyyatı fevralın 20-dən martın 30-dək www.uif.az internet saytı vasitəsilə aparılacaq.

Festivalın ilk rayon (şəhər) mərhələsi 2023-cü ilin aprel-iyun aylarında keçiriləcək. Bu mərhələdə qalib olan iştirakçılar festivalın növbəti mərhələsində iştirak hüququ qazanacaq. İyun-avqust aylarında keçiriləcək ikinci mərhələdə fərqlənən iştirakçılar finala vəsiqə əldə edəcək. Festivalın final mərhələsi isə sentyabr ayında Bakı şəhərində təşkil olunacaq. İştirakçılar barədə yekun nəticə münsiflər heyəti tərəfindən verilən qiymətlər əsasında müəyyən ediləcək.

Festival Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan təqdimatlar, rəqəmsal incəsənət nümunələri də daxil olmaqla ümumilikdə 21 nominasiya üzrə keçiriləcək:

*Piano ifaçılığı;*
*Klassik simli alətlər ifaçılığı;*
*Klassik nəfəs alətləri ifaçılığı;*
*Azərbaycan xalq çalğı alətləri ifaçılığı;*
*Akademik vokal;*
*Estrada oxuma;*
*Xanəndəlik sənəti;*
*Aşıq sənəti;*
*Xor;*
*Caz ifaçılığı;*
*Solo milli rəqs;*
*Milli rəqs ansamblı;*
*Solo müasir rəqs;*
*Müasir rəqs ansamblı;*
*Aktyorluq;*
*Bədii qiraət;*
*Hekayəçilik (stand-up);*
*Dekorativ-tətbiqi sənət;*
*Rəssamlıq;*
*Heykəltəraşlıq;*
*Rəqəmsal incəsənət – “Ümummilli lider Heydər Əliyev və Azərbaycan” (videoqraf, fotoqraf, müxtəlif kompüter proqramlarında hazırlanan təqdimatlar, həvəskar bloger).*

Festivalda hər bir iştirakçı yalnız bir fərdi nominasiyada iştirak edə bilər. Lakin kollektiv nominasiya üzrə festivala qatılanların əlavə bir fərdi nominasiyada da iştirak etməsi mümkündür. Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi edəcək.

Əlavə məlumatları Mədəniyyət Nazirliyi (https://culture.gov.az), Elm və Təhsil Nazirliyi (https://edu.gov.az) və Heydər Əliyev Mərkəzinin (https://heydaraliyevcenter.az) rəsmi internet səhifələrindən, 0502880147 mobil, 147 qısa nömrələrindən, həmçinin festivalın rəsmi internet saytı və sosial şəbəkə hesablarından əldə etmək mümkündür:

İnternet saytı – https://uif.az/
Facebook – https://www.facebook.com/uif.az/
Instagram – https://www.instagram.com/uif.az/
Youtube – https://www.youtube.com/@uif_az/
Tiktok – tiktok.com/@uif.az

# Mədəniyyət Nazirliyinin kollektivi Türkiyəyə humanitar yardım göndərib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişinə əsasən, fevralın 6-da Türkiyədə baş vermiş dəhşətli zəlzələdən zərər çəkən şəxslərə dəstək məqsədilə humanitar yardım tədbirləri davam etdirilir.



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollektivi də qardaş ölkəyə humanitar kömək göstərib. Nazirliyin kollektivi tərəfindən zəlzələ qurbanları üçün müxtəlif növ ərzaq məhsulları, uşaq yeməkləri, zəruri məişət əşyaları, elektrik qızdırıcıları, su qızdırıcıları və termoslar, paltarlar, o cümlədən qış geyimləri, ədyallar, şəxsi gigiyena və təmizlik ləvazimatları, tibbi ləvazimat və s. daxil olmaqla humanitar yardım, eləcə də 51 min 675 AZN (572.367 TL) məbləğində maddi vəsait göndərilib.

Mədəniyyət Nazirliyinin kollektivi bu çətin günlərdə qardaş Türkiyə xalqının dərdini bölüşür, fəlakət zamanı həlak olan şəxslərə görə bir daha başsağlığı verir, xəsarət alanlara şəfa diləyir.

İnanırıq ki, Türkiyə dövləti və xalqı bu ağır günlərdən tezliklə çıxacaq. Birlik və həmrəyliyimiz əbədidir.

# Xalq artisti Ramiz Novruz dünyasını dəyişib

Azərbaycan mədəniyyətinə, teatr və kino ictimaiyyətinə ağır itki üz verib. Görkəmli sənətkar, Xalq artisti, Akademik Milli Dram Teatrının aparıcı səhnə ustası, Prezident təqaüdçüsü Ramiz Novruz fevralın 20-də, 67 yaşında vəfat edib.



Ramiz Qəvvam oğlu Novruz 25 may 1955-ci ildə Biləsuvar rayonunun Səmədabad qəsəbəsində anadan olub.

1974-cü ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Rejissor Adil İsgəndərovun rəhbərlik etdiyi kursda təhsil alıb. Təyinatla H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. 1981-ci ildə Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. Teatrın səhnəsində onlarla tamaşada ("Xurşidbanu Natəvan", "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsalı" – İ.Əfəndiyev; "Lənkəran xanının vəziri" – M.F.Axundzadə; "Maqbet" – V.Şekspir; "Fəryad", "Hara gedir bu dünya?" – B.Vahabzadə; "Mənim sevimli dəlim", "Teleskop" – Elçin; "Müfəttiş" – N.Qoqol və s.) bir-birindən maraqlı, xarakterik rollar oynayıb.

Müxtəlif teatr festivallarının iştirakçısı və mükafatçısı olan Ramiz Novruzun yaradıcılığının bir qolunu kino fəaliyyəti təşkil edir. Görkəmli aktyor "Sizi dünyalar qədər sevirdim" filmində general Həzi Aslanov rolu ilə geniş tamaşaçı rəğbəti qazanıb, "Cavad xan" filmində general Sisianov, "Cavid ömrü"ndə Mircəfər Bağırov və s. müxtəlif yaddaqalan obrazlar yaradıb.

Ramiz Novruz xalqımız üçün ağrılı-acılı mövzularda bir neçə pyes yazıb. İlk pyesi olan "At ilinin birinci ayı" 20 Yanvar hadisələrindən bəhs edir və 1992-ci ildə Gəncə Dövlət Dram Teatrında, "Hələ sevirəm deməmişdilər" pyesi 2002-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulub.




O, həmçinin Eduardo de Filipponun "Silindr" əsərini ruscadan Azərbaycan dilinə tərcümə edərək rejissor kimi uğurla tamaşaya qoyub və özü də bu səhnə əsərində Attillio obrazını canlandırıb.

Teatr sənətindəki xidmətlərinə görə Ramiz Novruz 1993-cü ildə "Əməkdar artist", 1998-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Prezidentin fərdi təqaüdçüsü idi.

***

Ramiz Novruz fevralın 21-də paytaxtın Yasamal rayonundakı "Qurd qapısı" qəbiristanlığında torpağa tapşırılıb. Məzarın önünə Mədəniyyət Nazirliyi, Teatr Xadimləri İttifaqı, Akademik Milli Dram Teatrı və digər qurumlar adından əkillər düzülüb.

Sənətkarla vida mərasimində mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Allah rəhmət eləsin.

# "Yadıma sən düşürsən..."

## Əliağa Kürçaylının 95 illiyi qeyd olunub




Salyan rayon Mədəniyyət Mərkəzində şair, dramaturq, tərcüməçi, Əməkdar incəsənət xadimi Əliağa Kürçaylının (1928-1980) 95 illik yubileyi münasibətilə "Yadıma sən düşürsən..." adlı tədbir keçirilib.

İlk olaraq Ərəbqardaşbəyli kənd kitabxanası tərəfindən hazırlanan şairin kitablarından ibarət sərgiyə baxış olub. Əliağa Kürçaylının həyat və yaradıcılığından söz açılıb. Qeyd edilib ki, 1946-cı ildə "Sənin gözlərin" adlı ilk şeiri ilə ədəbiyyata gələn şairin şeirləri sonradan müntəzəm olaraq dövri mətbuatda çap olunub.

Tədbirdə rayon Mədəniyyət Mərkəzinin bədii qiraətçiləri və solistlərinin ifasında Ə.Kürçaylının şeirləri səsləndirilib, sözlərinə bəstələnən mahnılar ifa edilib.

***

Gəncə şəhər MKS-nin 1 saylı kitabxana filialı şəhər 4 saylı məktəbin müəllim və şagird kollektivi ilə birlikdə Ə.Kürçaylının 95 illiyi ilə əlaqədar tədbir təşkil ediblər. Çıxışlarda bildirilib ki, Azərbaycan poeziyasında özünəməxsus yeri olan şair 52 illik ömründə çox məhsuldar işləyib, şeirə, sənətə ciddi münasibət bəsləyərək maraqlı poetik nümunələrə imza atıb. Məktəblilər şairin şeirlərini söyləyiblər.

# "M.Teatr"da "Məhşər günü"

Müstəqil "M.Teatr"ın ("Mənim teatrım") səhnəsində müasir gürcü yazıçısı Gela Dumbadzenin "Gecə qonağı" əsəri əsasında hazırlanmış "Məhşər günü" tamaşasının premyerası olub.

Tamaşanı səhnələşdirən Xalq artisti Vidadi Həsənov, quruluşçu rejissor Gümrah Ömər, quruluşçu rəssam Umay Həsənova, musiqi tərtibatçısı Amid Qasımov, xoreoqraf Oksana Rəsulovadır.

Rolları Vidadi Həsənov (Mən), gənc aktyorlar Şahanə Yusifova (Qadın əcəl) və Tohid Əzim (Oğlan əcəl) ifa ediblər.

Birbölümlü əcəl oyunu kimi hazırlanan "Məhşər günü" tamaşası uğurlu karyera qurmuş, bu yolda bir sıra mənəvi dəyərlərini itirmiş və ölümə məhkum edilmiş, istedadlı, təcrübəli dövlət müşavirindən bəhs edir. O, hər şeydən bezir, gərəksiz biri olduğunu anlayır və özünü öldürmək qərarına gəlir. Odur ki, tapança ilə rus ruletkasını vasitə seçərək həyatı ilə oyuna başlayır. Hər cəhdində gülləyə tuş gəlməyən qəhrəman itirdiyi sevgilisini, ustadını, dostunu xatırlayıb onlara layiq olmadığını anlayır və israrla amansız oyununa davam edir. Bir sözlə, içində kök salmış laqeydliyi, təkəbbürü, xudbinliyi tədricən məhv edib əvəzində sevgi, savab kimi mənəvi keyfiyyətləri dirçəltməyi bacarır. Nəhayət, anlayır ki, bu mənəvi keyfiyyətlər insan həyatında əvəzi olmayan dəyərlər və həqiqətlərdir.

# Mədəniyyət nazirinin birinci müavini Adil Kərimli Şəkidə vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin bu ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, fevralın 17-də Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli Şəki şəhər Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Qəbuldan öncə Ümummilli lider Heydər Əliyevin Şəki şəhərində ucaldılmış abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib. Sonra Heydər Əliyev Mərkəzinə baxış keçirilib.

Gəncə şəhərindən, Şəki, Oğuz, Zaqatala, Qax, Balakən, Zərdab, Ağsu, Ağcabədi və Samux rayonlarından ümumilikdə 64 vətəndaş qəbulda iştirak edib. Onların müraciətləri əsasən işlə təmin olunma, fəxri adla təltif, sahə ilə bağlı təklif və mövcud problemlərlə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciətlərinin diqqətlə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə struktur bölmələrin rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Görüşdə şəhid ailələri və qazilərin qaldırdıqları məsələlərə xüsusi həssaslıqla yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə hər bir müraciət qeydiyyata alınaraq nəzarətə götürülüb.

Xatırladaq ki, mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli tərəfindən bundan əvvəl 26 yanvar 2023-cü il tarixində Sabirabad şəhərində Sabirabad, Saatlı, Hacıqabul rayonları və Şirvan şəhərindən vətəndaşların qəbulu keçirilmişdi.

# Xalqla birgə yaşanan ömür

"Heydər Əliyev İli" ilə bağlı regional mədəniyyət idarələrinin (RMİ) tabeliyində fəaliyyət göstərən müəssisələrdə tədbirlər davam edir.





**Ağstafa RMİ.** Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyində keçirilən tədbirdə çıxış edənlər söyləyiblər ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Qeyd olunub ki, ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

***

**İsmayıllı RMİ.** Mirzə Ələkbər Sabirin Şamaxıdakı ev-muzeyində "Heydər Əliyev ideyalarına sadiqik" adlı tədbir keçirilib. Çıxışlarda Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin hərtərəfli inkişafından söz açılıb. Şamaxı rayon A.Babaşov adına Şəhriyar qəsəbə tam orta məktəbinin şagirdləri Heydər Əliyevə həsr edilmiş şeirlər söyləyiblər.





***

**Kürdəmir RMİ.** Beyləqan Rayon Tarix-Diyarşünaslıq Muzeyi və 8 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində rolu" mövzusunda intellektual yarış təşkil edilib. Yarışda qalib adını qazanan "Qarabağ" komandasına fəxri fərman, eləcə də bütün komandalara Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar təqdim olunub.

***

**Şəki RMİ.** Zaqatala rayon Heydər Əliyev Mərkəzində mətbuat işçilərinin iştirakı ilə konfrans keçirilib. Çıxış edənlər 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsini dahi şəxsiyyətin Azərbaycanın inkişafında göstərdiyi xidmətlərinin, zəngin həyat və fəaliyyətinin daha dərindən öyrənilməsi üçün mühüm fürsət olduğunu bildiriblər. Sonda bir qrup mətbuat nümayəndəsinə fəxri fərman və hədiyyələr təqdim edilib.

***

**Masallı RMİ.** Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Bir dahi ömrü" layihəsi çərçivəsində növbəti tədbir keçirilib. Tədbirdə C.Kazımov adına Qodman kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak edib.

***

**Sumqayıt RMİ.** Sumqayıtın Tarixi Muzeyi və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Şabran Regional İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və mədəni irsimiz" adlı tədbir keçirilib. Tədbirdə Heydər Əliyevin Azərbaycan mədəniyyətinin qorunması və inkişafına diqqət və qayğısından bəhs edən sənədli videomaterial təqdim olunub.

***

**Sabirabad RMİ.** Hacıqabul şəhər Uşaq musiqi məktəbində "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda "Dostluq görüşləri" adlı konsert proqramı keçirilib. Konsertdə Şirvan şəhər Uşaq musiqi məktəbinin müəllim və şagird kollektivinin ifasında musiqi nömrələri təqdim edilib.

Saatlı rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evinin təşkilatçılığı ilə "Xalqa bağışlanan ömür" adlı tədbir keçirilib. Bədii qiraət dərnəyinin üzvləri Ulu öndərə həsr olunmuş şeirlər səsləndiriblər.

***

**Biləsuvar RMİ.** Salyan rayon Heydər Əliyev Mərkəzində "Qurtuluşdan Zəfərə, zəfərlə gələcəyə" adlı layihə gerçəkləşib. Ümummilli liderin siyasi fəaliyyətinin təbliği məqsədilə rayonun orta ümumtəhsil məktəblərinin şagirdləri üçün "Müasir Azərbaycan dövlətinin müstəqillik dövrü" mövzusunda tarix dərsi keçirilib.

***

**Gəncə RMİ.** Gəncə şəhər MKS-nin 7 saylı kitabxana filialında "Heydər Əliyev İli" ilə əlaqədar "Zəmanəmizin lideri" adlı kitab sərgisi təşkil olunub.

**Hazırladı: N.Məmmədli**

# Naxçıvandakı Heydər Əliyev Muzeyində 5400-dən çox eksponat qorunur

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin yaradılmasının 24-cü ildönümünə həsr olunan tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə fevralın 17-də keçirilən tədbiri giriş sözü ilə açan nazir Natəvan Qədimova bildirib ki, muzey Ümummilli lider Heydər Əliyevin hələ sağlığında ölkəmizdə yaradılmış ilk muzeydir.

Qeyd edilib ki, xalqımızın tarixi və mədəni irsinin qorunmasında muzeylərin əhəmiyyətini yüksək qiymətləndirən Heydər Əliyev respublikada muzey şəbəkəsinin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlayıb. Ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda muzey şəbəkəsinin inkişafı daha intensiv xarakter alıb, 100-dən çox muzey yaradılıb, ölkəmizdə tarix-diyarşünaslıq muzeyləri, görkəmli tarixi şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimlərinin ev-muzeyləri, xatirə muzeyləri təşkil edilib.



Bildirilib ki, Heydər Əliyev 1999-cu il oktyabrın 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək ekspozisiya ilə tanış olub. 2005-2006-cı illərdə muzeyin binasında əsaslı yenidənqurma işləri aparılıb. 2006-cı ilin dekabr ayında Prezident İlham Əliyevin iştirakı ilə muzey yenidən istifadəyə verilib.

Nazir muzeyin əməkdaşlarını təbrik edib, dahi şəxsiyyətin həyat və fəaliyyətinin bundan sonra da təbliğ edilməsi işində onlara uğurlar arzulayıb.

YAP Naxçıvan MR Təşkilatı sədrinin müavini Anar İbrahimovun "Ulu öndər Heydər Əliyevin siyasi irsi və müasir Azərbaycan" və muxtar respublikanın təhsil naziri Rəhman Məmmədovun "Ümummilli lider Heydər Əliyev və təhsil siyasəti" mövzularında çıxışları dinlənilib.

Heydər Əliyev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev diqqətə çatdırıb ki, muzeydə dahi rəhbərin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu əks etdirən ümumilikdə 5413 eksponat toplanıb, bunlardan 3000-dən çoxu ekspozisiyada və kitabxanada nümayiş etdirilir.

Sonra tədbir iştirakçıları "Heydər Əliyev – Azərbaycan mədəniyyətinin hamisi" filmini izləyiblər. Muzeyin ekspozisiyasına baxış keçirilib.

# Sündü mağaraları

## Ermənilərin 1918-ci ildə törətdiyi qırğınlar zamanı yerli sakinlər bu mağaralara sığınıb



Qobustan rayonunun 16 kilometr şimal-qərbində, əkin sahələrindən ibarət münbit yaylaların qoynunda yerləşən Sündü kəndinin qədim tarixi var. Buradakı mağaralar isə kəndin qədimliyinin də, əzəmətinin də miqyasını böyüdür. Yay aylarında bu mağaralara üz tutaraq ocaq qalayıb süfrə açan, gətirdikləri azuqələrlə başar tarixinin ilk dövrlərinə səyahət etməyə çalışanlar az deyil.

Sündü kənd sakini Gülrza Nəhmətov deyir ki, burada ilin bütün fəsillərində, əsasən də yay aylarında turistləri görmək mümkündür. Kəndə gələn qonaqlar daha çox mağaralarla maraqlanırlar.

Heyrətamiz qayalar üzərində yerləşən mağaralar iç-içə oyma otaqlardan ibarət qədim yaşayış məskənləri olub, o dövrün insanlarının həyat tərzi, yaşamı, ev mədəniyyəti ilə bağlı müəyyən fikirlər yaradır. Təbiət hadisələrinin təsirindən mağaraların bəzilərində aşınmalar olub. Kənd ərazisində bir, iki və üç otaqlı olmaqla əcdadlarımızın qədim yaşayış məskənləri olan 14 belə mağara mövcuddur.

Sündüdə az qala hər daş, hər qarış bir tarixdir. Kəndə Sasani hücumlarının, Xəzər-Hun basqınlarının, ölkə daxili feodal müharibələrinin də izləri görünür.

Buradakı mağaralar həm də milli faciələrimizin şahididir. Yerli sakinlər ermənilərin 1918-ci ilin mart-aprel aylarında törətdiyi misli görünməmiş qırğınlar zamanı bu mağaralardan sığınacaq kimi istifadə ediblər. Ermənidaşnak qüvvələri kənddəki 433 evdən 198-ni yandırıb, canını qurtarmağa fürsət tapmayan 295 nəfəri qətlə yetiriblər. Əlacsız qalan kəndin əli silah tutan sakinləri uşaqları, qadınları, qocaları mağaralara yerləşdirməklə yurdlarının müdafiəsinə qalxıblar. Bir sözlə, bu mağaralar soydaşlarımızın erməni vəhşiliyindən qorunmasında müstəsna rol oynayıb.

Tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli hesab edir ki, mağaralarda arxeoloji tədqiqatların aparılmasına ehtiyac var: "İstər Nərimankənd mağaraları olsun, istərsə də Sündü ətrafındakı mağaralar, istərsə də Sündü mağaraları – bunlar arxeoloji baxımdan tam öyrənilməyib. 1920-1930-cu illərin hesabatlarında bu barədə məlumatlar yer alıb. Ona görə də burada ətraflı tədqiqatlar aparmaq lazımdır".

# Arif babanın “Azərbaycan nağılı”...

## Xalq rəssamı yubiley ilində ilk sərgisini təqdim etdi



əvvəli səh. 1-də

“Azərbaycan nağılı” adlı sərgi rəssamın 80 illik yubileyi və yaradıcılığının 55-ci ili münasibətilə Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Milli Xalça Muzeyi, “Azərxalça” ASC və Azərbaycan Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilirdi.

Muzeyin direktoru Şirin Məlikova bildirdi ki, öz zəhməti və sənəti ilə insanların hörmətini qazanan Arif Hüseynov əsl rəssam həyatı yaşayıb. İl ərzində sənətkarın yubileyinə həsr olunmuş silsilə sərgiləri keçiriləcək: “İlk ekspozisiyanın bizim muzeydə açılması çox xoşdur. Arif Hüseynovun yubileyindən danışarkən onun 80 yaşı olduğunu təsəvvür belə etmək çətindir. Ruhən hər zaman gənc, yeni yaradıcılıq ideyaları və planları ilə dolu insan olan rəssam həmişə aktual mövzulara müraciət edir. O, daim yaradıcı ruhdadır”.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dedi ki, insanların bu sərgiyə böyük maraq göstərməsi görkəmli rəssamın şəxsiyyətinə və sənətinə olan sevginin ifadəsi, əsərlərində ənənə ilə çağdaşlığın uğurlu sintezi ilə bağlıdır: “Mənim tanıdığım Arif Hüseynov həmişə gəncdir, dinamikdir, yaratmaq şövqü möhtəşəmdir. Düşünürəm ki, bu bir xoşbəxtlikdir. Arif müəllimin daxilindəki uşaqlıq duyğusu bu gün də yaşayır. Uşaqlara xitab etdiyi əsərləri onun sənət dünyasının parlaq səhifəsidir”.

Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı, “Azərxalça” ASC-nin istehsalat üzrə direktoru Əlisəfa Nuriyev və digər çıxış edənlər Arif Hüseynovu yubileyi münasibətilə təbrik etdilər, sənətkarın yaradıcılıq məziyyətlərindən söz açdılar. Vurğulandı ki, həm respublikamızda, həm də xaricdə çoxsaylı sərgiləri keçirilən sənətkar mədəni irsimizin təbliğinə geniş yer ayırıb. Xalqın təfəkkürü, nağıl düşüncəsini sənətkarlıqla canlandıran rəssam bütün varlığı ilə bu sahənin özəlliyini, incəliyini çatdırmağa çalışır. O, həmçinin uşaq və gənclərlə işləməkdən zövq alır. Sənətkarın “Azərbaycan nağılı” silsiləsinə daxil olan əsərləri göstərir ki, Arif Hüseynov özündə ənənə ilə müasirliyin bədii vəhdətini yaşadan fərdi ifadə üslubunu sərgiləyə bilib.

Yubilyar çıxış edərək sərginin iştirakçılarına və təşkilatçılara minnətdarlığını bildirdi: “İstəyirəm ki, gənc nəsil xalq nağıllarımızı oxusun, müasir müəlliflər də uşaqlar üçün yeni nağıllar yazsınlar. Bu gün Zəfərimizi, Şuşamızı təsvir edən yeni nağıllarımız yaranmalıdır. Nağıllarımızda böyük fəlsəfə var. Xalq şairi Bəxtiyar Vahabzadə deyirdi ki, insanlar gərək nağılları uşaqlıqda və qocalıqda oxusunlar. Yaradıcı adam üçün folklorda çox şey var”.



Sonra iştirakçılar sərgi ilə tanış oldular. Sərgidə görkəmli qrafika ustasının geniş və rəngarəng yaradıcılıq aləmindən bir silsilə – xalq nağıllarımıza, hər kəsin tanıdığı və sevdiyi nağıl obrazlarına həsr etdiyi 54 qrafik lövhəsi nümayiş olunur. “Azərbaycan nağılı” sərgisinin ekspozisiyasına daxil olan, rəssamın ilk dəfə rəqəmsal çap formatında işlədiyi rəsm əsərlərində nağıllarımıza parlaq və fərdi cizgilərlə yeni həyat bəxş edilib, onlardakı sehr, müdriklik, gözəllik, ülviyyət, xalqımızın mifoloji dünyagörüşü xüsusi peşəkarlıqla təsvir olunub. Bu əsərlər həm də Azərbaycanın xovsuz və xovlu xalçalarının məşhur kompozisiyaları ilə haşiyələnib.

Arif Hüseynovun əsərlərində nağılların təsviri, koloriti detallarla zəngindir. İncəliklə işlənmiş ornamentlər, miniatürlər – nöqtə mirvarilərlə və digər qrafik elementlərlə xırdalanır və bütövləşir. Əsərlərə baxdıqca Arif müəllimin nağıl dünyasına və çəkdiyi rəsmlərə münasibətini bildirən bir fikri dolanır xəyalımda: “Ömründə iki dəfə bir nağıl oxuyursan – bir çox kiçik olanda, bir də qocalanda. Təbii ki, qavrayış da fərqlidir. Uşaqlıqda “Kim yatmış, kim oyaq” sözlərini quru bir süjet kimi qəbul edirsən, böyük yaşlarda gizli alt mətni başa düşürsən: “Yatan adam həyatda ən vacib olanları əldən verir”.

Milli Xalça Muzeyində “Azərbaycan nağılı” sərgisi fevralın 24-dək davam edəcək.

**Lalə Azəri**

# Dublyaj sahəsindəki problemlər müzakirə edilib

## AKİ-nin dublyaj seksiyası yaradılacaq

Azərbaycan Kinematoqrafçılar İttifaqında (AKİ) dublyaj sahəsindəki problemlərlə bağlı müzakirə keçirilib.

AKİ-dən bildirilib ki, son dövrdə mətbuatda da işıqlandırılan problemlərin müzakirəsi zamanı bu sahədəki vəziyyət geniş təhlil edilib. Bildirilib ki, dublyaj sahəsində peşəkarlığın artması və keyfiyyət dəyişikliyi var, xüsusilə səs rejissorlarının işlərində irəliləyişlər əldə olunub. Ancaq bununla yanaşı, görüləcək işlər də çoxdur. O cümlədən tərcümə müəlliflərinin və dublyaj aktyorlarının qonorarlarının artırılması arzuediləndir.

Tədbir iştirakçıları bildiriblər ki, dublyaj, texniki və sənət məsələsi olmaqla yanaşı, eyni zamanda Azərbaycan dilinin inkişafı məsələsidir. Bu baxımdan da xüsusi həssaslıq və diqqət tələb edir.

Müzakirədə dublyaj aktyorlarının, rejissorlarının və prodüserlərinin sosial qayğılarının həllinə də toxunulub.

AKİ-nin katibi, rejissor Əli İsa Cabbarov qeyd edib ki, ittifaqın illik mükafatlarında dublyaj fəallarının da mükafatlandırılması nəzərdə tutulmalıdır. Azərbaycan Kinematoqrafçılar İttifaqında dublyaj seksiyasının yaradılması da müzakirə edilib.

# “Əhməd haradadır?” filminin Ceyranı 80 yaşında

## “Azərbaycanfilm” Gürcüstanın Xalq artistini yubileyi münasibətilə təltif edib

Tbilisidə Ş.Rustaveli adına Milli Teatrda Gürcüstanın Xalq artisti, “Əhməd haradadır?” filmində Ceyran rolunun ifaçısı kimi Azərbaycan kinosevərlərinə də yaxşı tanış olan Nona Paçuaşvilinin 80 illik yubileyi münasibətilə tədbir keçirilib.





Gürcüstanın tanınmış teatr və mədəniyyət xadimlərinin iştirak etdiyi yubiley axşamı ölkənin Mədəniyyət, İdman və Gənclər Nazirliyi və Tbilisi Meriyasının dəstəyi ilə gerçəkləşib.

Tədbirdə aktrisanın həyat və yaradıcılıq yoluna nəzər salınıb. Yubilyara həsr olunan “Mən və mənim 88 əksim” adlı sənədli filmin premyerası da gerçəkləşib. Gürcüstanın Birinci kanalının istehsal etdiyi ekran işində “Əhməd haradadır?” (1963) filmindən fraqmentlər də yer alıb, N.Paçuaşvili Azərbaycan kinosunda çəkilməsinin tarixçəsindən danışıb.

C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyası da aktrisanı yubileyi münasibətilə fəxri fərmanla təltif edib. Fəxri fərmanda 2023-cü ilin kinostudiyanın 100, “Əhməd haradadır?” filminin 60 və N.Paçuaşvilinin 80 illik yubileyi ilə əlamətdar olduğu qeyd edilib. Bildirilib ki, bu Azərbaycan filmində aktrisanın yaratdığı Ceyran obrazı çoxsaylı tamaşaçıların gözlərində şən, gülərüz və mehriban qız kimi qalacaq. Aktrisanın Azərbaycan kinosundakı fəaliyyəti həmçinin iki xalqın mədəniyyəti arasında körpü kimi də dəyərləndirilib.

Fəxri fərman yubilyara Azərbaycanın Gürcüstandakı Səfirliyi vasitəsilə təqdim edilib.

N.Paçuaşvili “Azərbaycanfilm” kinostudiyasının rəhbərliyinə və kollektivinə ona göstərdiyi diqqətə görə məmnunluğunu bildirib.

# “Düşün və yarat!” yaradıcılıq müsabiqəsinin yekun sərgisi açılacaq

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində elan olunmuş “Düşün və yarat!” adlı yaradıcılıq müsabiqəsinə əsər qəbulu başa çatıb.

Müsabiqənin yekun sərgisi martın 1-də Xətai Sənət Mərkəzində açılacaq.

Xətai Sənət Mərkəzindən verilən məlumata görə, 12 yaşdan yuxarı hər kəsin qatılmaq imkanı olan müsabiqəyə 1000 nəfərə yaxın iştirakçı ümumilikdə 1500-ə qədər rəsm əsərinin, habelə gil, karton, kağız, metal parçası, plastmas və s. materiallardan hazırlanmış əşya və texnoloji sistemlərin fotolarını təqdim edib.

İlkin seçimlərdə 300-ə yaxın nümunə sərgilənmək üçün seçilib. Seçimlərdə müəllifin yaşı nəzərə alınmaqla ortaya qoyduğu yaradıcılıq əsas götürülüb.

Seçilmiş nümunələrə bu linkdə baxmaq olar: https://www.yumpu.com/xx/document/read/67530713/dusun-v-yarat-musabiqsind-tqdim-olunan-l-islri

Sərgi iştirakçıları 27 fevral tarixinə qədər fotoları paylaşılmış əl işlərini Xətai Sənət Mərkəzinə təqdim etməlidirlər.

Nümayiş olunan əsərlər geri qaytarılır.

# “Atam, anam, qardaşım, mən və Stalin” tamaşasının premyerası olub

C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının “Atam, anam, qardaşım, mən və Stalin” tamaşasının premyerası keçirilib. Fevralın 15-də Azərbaycan Teatr Xadimləri İttifaqının səhnəsində təqdim olunan tamaşa tənqidçi, ədəbiyyatşünas Azər Turanın eyniadlı dramı əsasında ərsəyə gətirilib.



Dahi şair-dramaturq Hüseyn Cavidin 140 illiyinə həsr olunan səhnə əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanov, tərtibatçı rəssamı Vahid Mürsəliyev, musiqi tərtibatçısı Çingiz Xəlilov, rejissor köməkçisi İmaməli İmaməliyevdir.

Tamaşada Cavidlər ailəsinin – Hüseyn Cavid, Mişkinaz Cavid, Ərtoğrul Cavid və Turan Cavidin – Stalin repressiyası səbəbindən məruz qaldıqları məşəqqətli ömür yollarından bəhs olunur.

Səhnə əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Rolları Əməkdar artist Esmiralda Şahbazova, aktyorlar Samir Əliyev, Pərvin Dadaşova, Niyaməddin Səfərəliyev ifa ediblər.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (14)

### 1977-ci il 8 fevral

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev aralarında mədəniyyət xadimləri də olan bir qrup şəxsə “Sosialist Əməyi Qəhrəmanı” adı, SSRİ-nin orden və medalları ilə təltif olunmaları haqqında fərmanları təqdim edib.

### 1977-ci il 8 iyun

Heydər Əliyev Sov. İKP MK-nın Təbliğat şöbəsi, Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsi və SSRİ Jurnalistlər İttifaqı tərəfindən təşkil olunmuş respublika və vilayət qəzet və jurnallarının, radio və televiziya redaktorlarının zona müşavirəsinin iştirakçılarını qəbul edib. Görüşdə mətbuatın aktual məsələləri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

### 1977-ci il 7 iyul

Azərbaycan KP MK-nın Birinci katibi, xalq deputatı Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 9-cu çağırış 5-ci sessiyasında məruzə edib. Məruzədə mədəniyyət sahəsinin inkişafı ilə bağlı məsələlərə də toxunulub.

*“...Kitabxanalar, mədəniyyət evləri və klublar şəbəkəsinin daha da genişləndirilməsi və onların işinin yaxşılaşdırılması məsələlərinə daim diqqət yetirməlidirlər. Şəhər və kəndlərimizi, müəssisələrin, kolxoz və sovxozların ərazisinin abadlaşdırması sahəsində Sovetlərin qarşısında böyük vəzifələr durur. Biz hər bir yaşayış məntəqəsini yüksək məhsuldar əmək, yüksək mədəniyyət, nümunəvi ictimai asayiş şəhərinə və kəndinə çevirməliyik...”.*

### 1977-ci il avqust

“Sovetskiy Soyuz” jurnalının 8-ci nömrəsində Heydər Əliyevin məqaləsi dərc olunub. Məqalədə Azərbaycanın keçdiyi inkişaf yolu kontekstində mədəni-maarif işinə də toxunulub.

### 1977-ci il 5 oktyabr

Azərbaycan KP MK-nın Birinci katibi, SSRİ xalq deputatı Heydər Əliyev 9-cu çağırış SSRİ Ali Sovetinin 7-ci növbədənkənar sessiyasında çıxış edib. Növbədənkənar sessiya (4-7 oktyabr) SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə bağlı çağırılmışdı. Heydər Əliyev geniş məzmunlu çıxışında Azərbaycanda digər sahələrlə yanaşı, mədəniyyət sahəsinin inkişafından, mədəni-maarif işinin respublikanın ucqar bölgələrini də əhatə etməsindən danışıb.

***

Mədəniyyət sahəsində qabaqcıl fəaliyyət, incəsənət, ədəbiyyat xadimlərinin yaradıcılığı dövlət tərəfindən təşviq edilirdi.

### 1977-ci il 4 yanvar

Azərbaycan sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq yazıçı Vidadi Babanlı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə təltif olunsun.

### 1977-ci il 14 yanvar

Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərinə görə yazıçı Süleyman Vəliyevə “Azərbaycan SSR-in Əməkdar mədəniyyət işçisi” fəxri adı verilib.

### 1977-ci il 28 yanvar

Azərbaycan balet sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq SSRİ Xalq artisti Leyla Vəkilova Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

### 1977-ci il 18 iyul

Monumental və dəzgah heykəltəraşlığının inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq respublikanın Xalq rəssamı, SSRİ Rəssamlar Akademiyasının müxbir üzvü Tokay Məmmədov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

### 1977-ci il 25 avqust

Arxitektura sahəsində xidmətlərinə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq Azərbaycan Arxitektorlar İttifaqı İdarə heyəti sədrinin birinci müavini, Əməkdar arxitektor Tələt Xanlarov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmani ilə təltif edilib.

### 1977-ci il 19 oktyabr

Respublikada bədii özfəaliyyətin inkişafında xidmətlərinə və zəhmətkeşlərin bədii özfəaliyyət yaradıcılığının 1-ci Ümumittifaq festivalının hazırlanmasında və keçirilməsində fəal iştirak etdiklərinə görə festivalın yekun konsertinin quruluşçu rejissoru Əli Usubova “Əməkdar incəsənət xadimi”, bir qrup mədəniyyət işçisinə, o cümlədən özfəaliyyət kollektivlərinin bədii rəhbərlərinə “Əməkdar incəsənət işçisi” fəxri adı verilib.

Bundan əlavə, respublikada bədii özfəaliyyətin inkişafında xidmətlərinə və festivalın keçirilməsində fəal iştirakına görə bir qrup incəsənət xadimi və mədəniyyət işçisi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib. Təltif edilənlər arasında rəssam Mikayıl Abdullayev, bəstəkarlar Tofiq Quliyev, Süleyman Ələsgərov, rəqqasə-baletmeyster Xumar Zülfüqarova, aşıq İsfəndiyar Rüstəmov (Gədəbəy) və başqaları vardı.

Həmçinin festivalda fəal iştirak etmiş bədii özfəaliyyət kollektivləri Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər: Salyan rayon Mədəniyyət evinin “Cəngi” zurnaçılar ansamblı, Ucar rayon Mədəniyyət evinin xor kollektivi, Sumqayıt şəhərində N.Nərimanov adına Mədəniyyət evinin nəfəs alətləri orkestri, Kirovabad (Gəncə) şəhərində Maarif işçiləri evinin “Gəncə” xalq estrada orkestri, İliç (Şərur) rayon Mədəniyyət evinin “Yallı” xalq rəqs ansamblı, Lənkəran rayon Mədəniyyət evinin “Şənlik” mahnı və rəqs ansamblı və s.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№14 (1983)
22 fevral 2023
www.medeniyyet.az

**Bir ömür sənət**

Azərbaycan peşəkar milli teatrının 150 illiyi münasibətilə bu rubrikada ömrünü səhnəyə həsr etmiş qocaman sənət xadimlərimizlə söhbət edəcəyik...

# Onun cənnəti teatrdır...

## Cənnət Səlimova: “Səhnəni, kulisin qoxusunu, teatrın hər hücrəsini sevirəm...”



O, Azərbaycan teatrının yaşayan əfsanəsi, mənə elə gəlir ki, müasir teatrımızın ən böyük qadın rejissorudur. Səhnəyə gətirdiyi yeniliklər, quruluş verdiyi tamaşalar və sözsüz ki, mədəniyyətimizə bəxş etdiyi unikallıqlara görə və ümumiyyətlə, şəxsiyyət olaraq, bəlkə də elə bu dünyada cənnətini qazanıb...

Həmsöhbətim Xalq artisti, “Şöhrət” və “Şərəf” ordenli rejissor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Cənnət Səlimovadır.

*– Cənnət xanım, necəsiz?*

– Babat demək olar. 83 yaş sizə asan gəlməsin.

*– Bu yaşda həyat necə görünür?*

– Mən yaşamaq istəyirəm, həyatdan doymuram. Çünki teatrdan başqa həyatımda heç nə yoxdur. Odur ki, işləyə bilirəmsə, tamaşa qurub, aktyorlarım, tələbələrimlə çalışıramsa, deməli, yaşayıram. Amma teatrsız həyat mənə heç nə ifadə etmir.

*– Belə başa düşürəm ki, sizin teatrdan kənardakı həyatınız da elə teatrladır. Bu yaşam maraqlıdır, yoxsa artıq monoton proses?*

– Bu mənim sevimli işimdir. Belə bir fikir var: əgər zövq almaq və dinc yaşamaq istəyirsənsə, sevdiyin işi seç. Mən bütün həyatımı, onun hər gününü sevdiyim işə həsr etmişəm. Mənimçün bu, səadətdir. Səhnəni, kulisin qoxusunu, teatrın hər hücrəsini sevirəm. Aktyorları, ən əsası da, teatr vasitəsilə unikal insanlarla ünsiyyəti. Və bu məndə yalnız teatrla olanda alınır. Deyirsiniz monoton, amma mən hər an Şekspirlə, Çexovla, Cavidlə, Axundzadə ilə... ünsiyyətdəyəm. Onlar ilə həyat çox maraqlıdır.

*– Səhnədən, ədəbiyyatdan öyrəndikləriniz həyatda işinizə yaradımı və maraqlıdır, cavanlıq doğruları yaşlandıqdan sonra üz döndərmir ki?*

– Hələ də dahilərdən öyrənməyə, onların dünyasına daxil olmağa çalışıram. Məsələn, Hüseyn Caviddən dünyaya, insanlığa böyük sevgini öyrəndim. Bu qədər əsər oxumuşam, amma heç birində onun qədər bəşəri sevginin gücünə inanana rast gəlməmişəm. Onun sayəsində həm də bütün dünyanı, insanları, insanlığı, hətta ən pis həsəb olunanları da sevdim. Axı, onun məhəbbəti bütün dünya boydadır. Məncə, Cavid daim müasirdir. Çünki o, dünya insanı idi.

*– Söhbət bu məcraya köklənmişkən, gəlin, 80 il öncəyə qayıdaq. Əgər kövrəlmədən qayıda bilsəniz...*

– Söz verə bilmərəm, amma gedək (gülür).

*– O illərə qayıtsaq, ilk olaraq yadınıza kim və nələr gələr?*

– Uşaqlığım mənim həyatımın ən gözəl çağıdır. Hərçənd indi başa düşürəm ki, uşaqlığım ağır müharibə dövrünə düşüb. Bakının o dövrünü – həyəcan siqnallarını, səsgücləndiricilərdən deyilən “işıqları söndürün” çağırışlarını xatırlayıram. Aclıq, səfalət, kədər dolu illər idi. Yadımdadır, bizə bir qoca qarı gəlirdi. Tam yad biri idi. Anam onu yedirər, çimizdirib, pal-paltarın dəyişərdi. Sonra o tənha qadını görmədim. Anamdan soruşanda da sakitcə “Yəqin ki, ölüb”, – dedi. Mən uşaq ağlımla ona “Niyə ölüb” sualını verdim. O isə məni nəinki onda, bütün həyatım boyu sarsıdacaq və ağrıdacaq cavabı verdi: acından ölüb. Dəhşətli dövr idi. Amma 4-5 yaşlı uşaq kimi mən xoşbəxt idim və hesab edirdim ki, həyat elə belə olmalıdır. Yaşayırdım, əylənirdim, valideynlərimi, dünyanı sevirdim. Evimizə bağlı uşaq idim və öz hücrəmdə xoşbəxt böyüyürdüm. Sonra birdən hər şey dəyişdi. Evimizə kədər köçdü və mən ondan qaçmaq, tənhalığımdan imtina üçün teatrı seçdim. 5 yaşım vardı və qəfildən 15 yaşlı qardaşımı itirdik. Anam gəzən ölüyə çevrildi. Düzdü, heç də hər şeyi anlamırdım. Amma bilirdim ki, anam üçün həyat bitdi. Atam yenə kişi idi, özünü elə alıb, həyatdan tutmağa çalışırdı. Axı, həm də mən vardım. Amma anamda təəssüf ki, bu alınmırdı. Hərçənd mənə çox yaxşı baxırdı. Amma... qardaşımdan sonra anamın nə saçını boyadığını, nə üz-gözünü bəzədiyini, nə də yeni paltarlar alıb, toya-bayrama getdiyini gördüm. Onun həyat sevinci bitmişdi. Mənə acıdığını da hiss edirdim. Onu da bilirdim ki, qardaşımın kölgəsi daim mənim təsvirimin önündədir. Axı, mən uşaq idim və heç bir günahım yoxuydu. Sadəcə, oynamaq, əylənmək, sevgi ilə böyümək istəyirdim. Ona görə də atam məni tez-tez teatra, kinoya aparırdı. O, anlayırdı ki, mən kədərlə böyüyə bilmərəm. Hər bazar induki Fəvvarələr bağının yanındakı evimizdən Yasamal qəbiristanlığına piyada gedirdik. O, qardaşımın məzarı önündə saatlarla oturur və susur, mən isə susqun atamla gizlənqaç oynayırdım. Atam məni gec tapsın deyə hər dəfə də ən uzaq məzarları seçirdim. Bir dəfə atam bunun günah olduğunu dedi və bu oyunumu da əlimdən “aldı”. İndi anlayıram ki, məni orada itirməkdən qorxduğundan belə deyib.

Cənnət xanımı uşaqlıq dövrünün kədərli xatirələrindən çıxarmaq çətin oldu. Aramsız göz yaşlarından, illər əvvəlin nisgilinə qayıdıb qapanmasından qorxum və cəld söhbəti sevdiyi teatra gətirdim.

*– Qəribə səslənəcək, amma o kədər olmasaydı, bəlkə siz teatra gəlməyəcək və biz də sizin kimi unikal rejissoru tanımayacaqdıq...*

– Başqalarını deyə bilmərəm, amma mənim o kədərdən və ümumən dünyanın yükündən qurtulmaq yerim teatr oldu. Reallıqdan qaçmaq üçün teatra sığındım və o, həyatımı tamamilə dəyişdi. Mən nə etdim? Klassikləri götürüb bizim zamana, reallığa, cari problemlərə inteqrasiya etdirdim. Beləcə, reallıqdan da qopmadım. Sözsüz ki, bu işdə Mirzə Fətəlinin rolu böyükdür. Onun vətəninin sabahı üçün ürəyi nə qədər ağrıyıb ki, o, belə əsərlər yazıb və çılpaqlığı ilə bizi bizə göstərib. Məncə, Axundzadə Molyerdən daha böyük, daha əzəmətlidir.

*– Özünüzü xoşbəxt hiss etmək üçün gəldiyiniz teatr sizi xoşbəxt etdi?*

– Xoşbəxtlik anlayışını teatrda xüsusilə qəbul etmirəm. Buradakı xoşbəxtlik qum üzərində yazı kimidir. Gözəl bir rəsm çəkirsiz, dalğa gəlir, təsvirinizi yuyub aparır və geridə yenə qum qalır. Bu mənada sadəcə, xoşbəxtlik dəqiqələri olur. Mənim üçün bu, tamaşaçının tamaşadan məmnunluğunda bitir. Əgər o, mənim hazırladığım nümunədən nə isə hiss edib, öz qəlbinə, həyatına köçürürsə, deməli, məni xoşbəxt edir. Amma daimi xoşbəxtlik yoxdur və bu primitiv xülyadır.

*– Həmişə həyata belə real baxmısız, yoxsa teatrda, onun kulisində, qaynar intriqaların içində belə möhkəmlənmisiz?*

– Deməli, o intriqalar sizin də qulaqlarınıza qədər gəlib çıxır? Elədirsə, çox pis. Amma həm də maraqlı (gülür). Sualınıza gəlincə, bu hal məndə ildən-ilə dəyişdi. Gəncliyimdə daha səbirsiz və qəti idim. Daim əmin, dönülməz yollara gedir və asan nəticəyə gəlirdim. Özü də fikrimdən dəmək olar ki, dönmürdüm. Amma zaman ötdükcə insanları anlamağa başladım. Sözsüz ki, çox şeydə onlara bərəət verməyi, haqq qazandırmağı da bacardım. Çünki bəzi məqamlarda bu, sadəcə, yaşaya bilmək imkanıdır. İndi daha yaxşı anlayıram və mühakiməni birmənalı rədd edirəm. Bunu da teatrdan öyrəndim.

*– Sənətdə yaşamaq və qalmaq üçün gedən mübarizələr bəzən həyatdakından daha ağır olur...*

– Düzdü. Amma bu nəticəyə gəlmək üçün teatra olan sevgin qəlbinə sığışmamalıdır. Çünki ən əsası xidmət və sevgidir. Gəlin, 84-ün kandarında sizə bir etiraf da edim, başqaları rahatlaşsın. Yaşından və statusundan asılı olmayaraq, bütün aktyorlar mənim üçün uşaqdır. Çünki körpə necə anasından asılıdırsa, aktyor da rejissorundan asılıdır. Mən ona rol verirəm, xoşbəxt olur, məni sevir. Bir mövsüm səhnəmdə görmürəm, rol vernirəm, nifrəti minə qatlanır və o, sözsüz ki, haqlıdır. Axı, rol onun qidasıdır. Əgər mən bir ana, himayəçi olaraq ona qida vermirəmsə, günahı məndədir. Ona görə də zamanla aktyorları həm daha çox sevməyi, həm də bağışlamağı öyrəndim.

### “Teatr istənilən insanı xoşbəxt edə bilirsə, bunun üçün əzaba dəyər”

*– Fərqli teatrlarda çoxlu aktyorlarla işləmisiz. Sizin üçün aktyorun məmnunluğu vacibdir, yoxsa tamaşaçının?*

– Əlbəttə, tamaşaçının. Ümumən mən hesab edirəm ki, tamaşaçını sevməsən işləmək olmaz. Xeyli əvvəl idi. Rus Dram Teatrında çalışırdım. Bir komik tamaşa hazırladım və onunla az qala bütün ölkəni gəzdik. Əsasən də ucqar rayonlara, kəndlərə gedirdik. Yadımda deyil hansı kənd idi, amma ucqar idi. Şəhərdən yola çıxıb axşam 5-də çatdıq. Səhnəni, daha doğrusu, 2-3 stul və onun yanyörəsini apardığımız rekvizitlərlə bəzəyib gözləyirik. Amma bir nəfər də tamaşaçı yoxdur. Çox məyus olduq. Bunu hiss edən inzibatçımız bizə ürək-dirək verməyə başladı: narahat olmayın, gələcəklər. Sadəcə, gözləyin, qoy naxır gəlsin, sonra başlayarıq. Üzərindən yarım saat keçmişdi, inəklərin səsi ətrafa yayıldı. Bu səs bizi necə sevindirdi. Bir-birimizə baxıb start işarəsini verdik. Kolxozun sədri cəld ortaya atılıb “Nəyə sevinirsiz, hələ inəklərin sağılmağı var. Sağıcılar sağıb, işlərin qurtarsınlar, gələcəklər”, – dedi. Baho, işə düşmədik?!. Biz bir saat da sağımı gözlədik. Sağım da bitdi və tamaşaçılarımız gəldi. Düzdü, onlar rus dilində oynanılan tamaşanın sözlərini o qədər də yaxşı anlamırdılar. Amma necə heyranlıq və sevinclə bizə baxırdılar. Lap qabaqda, özü də yerdə balaca uşaqlar oturmuşdu. Arxada da qadınlar. 5-6 nəfər kişi vardı, qalanı hamısı ağ yaylıqlı qadınlar idi. Dəhşətlidir, (Cənnət xanım məni qəhqəhəyə boğan inək əhvalatından sonra yenə göz yaşlarına boğuldu – H. N) o qadınlar, onların qabarlı və böyük əlləri, əzablı, yorğun üzlərinə hopan ani sevinc məni məhv etdi. Hisslərimi ifadə etməkdə indi də çətinlik çəkirəm. Amma məhz o zaman anladım ki, teatr istənilən düşüncədə və zövqdə insanı xoşbəxt edə bilirsə, bunun üçün əzaba da dəyər və məhz o sağıcı xanımlar sayəsində mən özümü xoşbəxt hiss etdim. Bu mənada rejissorun əsas məqsədi, amalı tamaşaçıya sevgidir. Odur ki, zala baxıb qiymət verən, təyinlər edən rejissora da, aktyora da nifrət edirəm. Çünki tamaşaçı daim haqlıdır, ən yüksək pillədədir və biz ona borcluyuq. Bu mənada mən ən çox tamaşaçını sevirəm. Xüsusən bizim tamaşaçını. Axı, onlar sonsuz müharibələrdən, keçid dövründən, itkilərdən, maddi və mənəvi böhranlardan əzab çəkiblər və bu, davam edir.

*– Deməli, onları teatrla ovundurmaq lazımdır. Amma, məncə, baxır hansı tamaşaçını...*

– Mənim üçün tamaşaçının heç bir fərqi yoxdur. Birmənalı olaraq cəmiyyət necədirsə, onun teatrı da elədir. Amma tamaşaçı ilə ümumi dil taparaq, onu tərbiyələndirmək də teatrın missiyasıdır. Amma bunu “mən səni öyrədirəm” ilə eləmək olmaz. Mənə görə tamaşaçı da daim yaxşı, sağlam qidalanmalı olan uşaqdır. Hansı zaman olsa da ona onunla ümumi dili tapmalıyam və ona mərhələli olaraq ədəbiyyatı, həyatı, sənəti göstərməliyəm.

*– Cənnət xanım, dediniz tamaşaçılarım da mənim uşaqlarımdır. Ümumiyyətlə, teatr tərbiyə yeridir?*

– İnanmıram. Teatr sadəcə, göstərir. Hadisələrə real baxan adam kimi deyim ki, teatr nələrisə dəyişə bilməz, amma göstərmək, tamaşaçıya izah etmək imkanı var. Məsələn, aktyor səhnədə Hamleti oynayır, tamaşaçı da heyranlıqla baxır. Xarakterindən, münasibətindən, yaşından asılı olmayaraq, hamı özünü Hamlet kimi hiss edir və heç kim özünü əclaf Klavdinin yerinə qoymur. Beləcə, teatr tamaşaçının yaddaşında hansısa yaxşı cəhətə işarə ilə mütləq qalır.

*– Yaradıcılığınızın 60 ilini arxada qoymusuz. Yəqin mövsümi və daimi tamaşaları yaxşı seçə bilirsiz. Uğuruna necə, əvvəldən inanırsız, yoxsa?*

– Bu illər ərzində bir dəfə də olsun cari hadisə, ötəri fakt ilə bağlı tamaşa hazırlamamışam. Yəni tarix üçün tamaşa qoymamışam və bu mənə maraqlı deyil. Bizim işimizdə hər şeyi tamaşaçı təyin edir. Amansızdırmı, bəli. Çünki kino, musiqi əsəri öz real dəyərini illər sonra da ala bilir. Amma tamaşa bu gün, bu auditoriya üçün ya var, ya da yoxdur. Odur ki, teatrı və onun taleyini tamaşaçı təyin edir.

*– Teatrın sütunu həmişə klassik dramaturgiyadır?*

– Fərqi yoxdur, müasir əsərlər var ki, klassika hesab etmək olar. Elə klassik nümunələr də var ki, heç cür tamaşaçı ilə ünsiyyət forması yoxdur və rejissora bu xüsusda “material” vermir.

*– Janrı rejissor müəyyən edirsə, bu, asan başa gəlir? Əslində, bu da sizdə pis alınmır deyə sualı işin sirrini soruşmaq kimi də başa düşə bilərsiz.*

– Lap xoşuma gəldi bu məsələ (gülür). Dramaturji material yön verir, amma bütün hallarda janrı özüm müəyyən edirəm. Adətən mənim seçdiklərim ilə müəlliflərin janr təyinləri üst-üstə düşür. Amma yaxşı materialdan istənilən işıqlı nəticə çıxarmaq olar. Onu da deyim ki, bütün zamanlarda tamaşaçını güldürmək daha çətindir və bunu hər rejissor bacarmır. Söhbət həqiqi komediyadan, gülüşdən gedir. Amma tamaşaçını ağlatmaq su içmək kimidir və bu zəif nöqtədən bəzi pis rejissorlar asanlıqla istifadə edirlər.

### “Sənətə 3-4 tənqidçinin zövqünü oxşamaq üçün gəlməmişəm”

*– Rejissorlar həmişə teatrın repertuar siyasətindən asılı qalır?*

– Əlbəttə. Çünki teatrda bir neçə rejissor çalışır və hər mövsüm üçün təyin olunan repertuar planındakı rəngarənglik üçün mütləq düzgün bölgü olmalıdır. Yəni sən faciə qoymaq istəyərsən, amma komediya tapşırığı alarsan və icra etməlisən. Bu, normaldır. Di gəl mən festival və repertuar tamaşaları bölgüsünə nifrət edirəm. Bu, əvvəldən o tamaşaların taleyini həll edir. Sən böyük həyətinlə aylarla bir tamaşa üzərində işləyib ya minlərlə tamaşaçını sevindirə bilərsən, ya da eyni enerji itkisi ilə 2-3 nəfər teatr mütəxəssisini – tənqidçini, teatrşünası. Mənə sözsüz ki, kütləvi tamaşaçı lazımdır və rejissor kimi vəzifəm 1-2 dəfə yox, 10-20 il oynana biləcək tamaşalar qurmaqdır.

*– Bəzən baxımlı tamaşalar da repertuardan çıxarılır.*

– Bəli, reallıqla da barışmışam, çünki çox görmüşəm. Tamaşa da övlad kimidir və diqqət, sahiblənmək istəyir. Mən bütün tamaşalarıma gəlirəm, baxıram, izləyirəm və “dağılmağa” qoymuram. Tamaşanı ilk dağıdan da elə aktyorlar olur. Başlı-başına qalanda yersiz improvizələr edirlər, səhlənkar yanaşırlar və tamaşaçını nəzərə almadan asan yola qaçırlar.

*– Belə çıxır ki, improvizəni qəbul etmirsiz?*

– Edirəm, niyə ki? Hətta, məncə, improvizə bacarmayan aktyoru teatra işə götürmək olmaz. Amma söhbət istedad və bacarıqla, düşünülmüş improvizədən gedir, daha tamaşanı xaosa sürükləyən lağlağıdan yox.

*– İndi nə üzərində çalışırsız?*

– Hazırda pandemiyaya görə oynanılmayan tamaşalarımın bərpası ilə məşğulam. “Dəli yığıncağı” və “Romeo və Cülyetta”nı bərpa etdim. “III Riçard” üzərində iş gedir.

*– “Romeo və Cülyetta” dediniz, yadıma bu tamaşanızla bağlı yazılar düşdü. Tənqidə dözümlü adamdan çox onları vecinə almayan rejissor təsiri bağışlayırsınız. Yanılıram?*

– Yox (gülür). Bu məsələdə daim mafiyanın qanunları gəlir ağlıma. Onlar deyir ki, dostlarını yaxında saxla, düşmənlərini isə lap gözünün önündə.

*– Mən teatrşünaslardan danışıram, siz isə mafiyadan. Təzadlı müqayisədir.*

– Mən böyük məmnuniyyətlə tənqidçiləri eşidirəm və düşünürəm ki, haradasa haqlıdırlar. Daim aktyorlara da deyirəm ki, siz daha çox sizi tənqid edənləri dinləyin, nəinki tərifləyənləri. Amma söhbət sağlam tənqiddən gedirsə. Özüm də bu prinsipə əməl edirəm. Amma həm də bilirəm ki, mən sənətə 3-4 nəfər tənqidçinin zövqünü oxşamaq üçün gəlməmişəm. Çünki bəzi tənqidçilər tamaşaya sadəcə öz zövq və düşüncələrinin diktəsi ilə baxırlar. Mənim isə əsas obyektim tamaşaçıdır və onun münasibəti mənə daha maraqlıdır. Mafiya məsələsinə gəlincə, əksər rejissorların öz dost tənqidçi çevrəsi var və mən buna heç vaxt maraq göstərməmişəm.

**Söhbətləşdi:
Həmidə Nizamiqızı**



# Səhəri kirpiyində açan şair...

## Davud Nəsibin xatirəsi yad olundu

Tanınmış şair, yazıçı, publisist, tərcüməçi Davud Nəsibin (Davud Məcid oğlu Nəsibov; 1942-2003) 80 illik yubileyi münasibətilə fevralın 16-da Beynəlxalq Muğam Mərkəzində xatirə gecəsi keçirildi.

Azərbaycan Yazıçılar Birliyi, “Qazax” Xeyriyyə İctimai Birliyi və şairin ailəsinin birgə təşkilatçılığı ilə hazırlanan tədbirdə millət vəkilləri, ədəbiyyat, mədəniyyət, elm xadimləri və digər qonaqlar iştirak edirdilər.

Əvvəlcə qardaş Türkiyədə baş verən zəlzələdə həyatını itirmiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra AYB Ağsaqqallar Şurasının sədri, Xalq şairi Nəriman Həsənzadə çıxış edərək Davud Nəsiblə 14 il bir yerdə çalışdığını diqqətə çatdırdı, xatirələrini bölüşdü. Dedi ki, Davud Nəsibin yaradıcılığını oxuduqca onun həm də sözün, ruhun, torpağın keşikçisi olduğunu görürük.

Xatirə gecəsində aktyorların ifasında Davud Nəsibin “Cavanşir” tarixi romanı əsasında səhnəcik nümayiş olundu. Müğənni Arif Mehmandost və aşıq Şahin Süleymanov şairin şeirlərini ifa etdilər.

Şairin ailəsi adından çıxış edən oğlu Xəyyam Nəsibov tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi. Qonaqlara D.Nəsibin “Cavanşir” romanı və ikicildlik “Ata laylası” kitabı hədiyyə edildi.

Davud Nəsib 1942-ci il avqustun 25-də Qazax rayonunda anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kitabxanaçılıq fakültəsində təhsil alıb. Həmçinin Moskvada SSRİ Yazıçılar İttifaqı nəzdində ikiillik ali ədəbiyyat kursunu bitirib.

Ədəbi fəaliyyətə 1956-cı ildə “Qalibiyyət bayrağı” (Qazax rayonu) qəzetində dərc edilən “Mənim doğma çayım – mənim Kür çayım” adlı şeiri ilə başlayıb. Sonra müxtəlif mətbuat orqanlarında əsərləri dərc olunub. O, SSRİ xalqlarının bir sıra şairlərinin, habelə macar şairi Mikloş Radnotinin şeirlərini Azərbaycan dilinə tərcümə edib. Onun Moskvada “Sovet yazıçıları” nəşriyyatı tərəfindən “Anama məktublar” (1974), “Ocaq daşları” (1981) şeirlər kitabları çap olunub.

1966-1969-cu illərdə Azərbaycan SSR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin İncəsənət redaksiyasında redaktor işləyib. “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında müxtəlif vəzifələrdə çalışıb. 2003-cü il martın 26-da vəfat edib.

**Lalə Azəri**

# "Seçmə aşıq şeirləri antologiyası" çap olunub

Azərbaycan Aşıqlar Birliyinin (AAB) həyata keçirdiyi layihə çərçivəsində "Seçmə aşıq şeirləri antologiyası" adlı kitab nəfis tərtibatla işıq üzü görüb.



AAB-dən bildirilib ki, üç bölümdən ibarət topluda aşıqların və saz-söz ifaçılarının repertuarında yer alan populyar aşıq şeirləri yer alıb.

Birinci bölümdə Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım kimi qədim ustadlardan başlayaraq Abdal-Gülablı Valeh, Şəmkirli Hüseyn, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı, Növrəs İman, Aşıq Şəmşir, Mikayıl Azaflı və digər klassik aşıqların seçmə şeirləri cəm olunub.

İkinci bölümdə "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm", "Şah İsmayıl", "Novruz və Qəndab", "Abdulla və Cahan", "Tahir və Zöhrə" və digər dastanlarda yer alan məşhur şeirlər təqdim olunur.

Üçüncü bölümü el şairləri və tanınmış yazılı ədəbiyyat nümayəndələrinin seçmə şeirləri təşkil edir.

Antologiyanın elmi məsləhətçisi AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlıdır.

Nəşrə hazırlayanlar professor Məhərrəm Qasımlı, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli və Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu, redaktoru filologiya üzrə fəlsəfə doktoru Aynur Xəlilovadır.

Antologiya aşıqlar, saz-söz sənəti ilə yaxından məşğul olan elm adamları, yeni nəsil saz-söz ifaçıları, eləcə də aşıq sənətinin tədrisi üzrə müəllim və tələbələrin istifadəsi üçün nəzərdə tutulub.

# Bozarıb-qızaran ay gəldi, Su çərşənbəsini də gətirdi...

Xalq təqvimınə görə, fevralın 19-da Kiçik çillə 20 günlük ömrünü Boz aya bağışladı. Fevralın 20-dən Boz ay başlanıb. Dörd əlamətdar çərşənbəyə bölünən bu "ala-bəzək" ay martın 20-də qışla baharın təhvil-təslimi ilə səhnədən enəcək.

Elə bilirsiniz ki, ulularımız 30 günlük bu zaman kəsiyini təsadüfən "Boz ay" adlandırıb? El gözü tərəzidir, bir də yanmayan yerdən tüstü çıxarmı?... Çox zaman Boz ay əsib-coşmasıyla, qar-boranıyla Böyük və Kiçik çillələrin "atasına rəhmət oxutdurur". Gah yaz günəşini andıran xoş havasından xumarlanır, gah da qar-çovğunundan daldalanmağa, isinməyə yer axtarırıq.

Qışın çətinliyindən usanıb-bezən insanlar Boz ayın gəlişi ilə ümidlənər, baharı, Novruzu sanki iplə çəkərlər. Məhz Novruzun müjdəçiləri olan dörd ilaxır çərşənbə (Su, Od, Yel-hava, Torpaq) bu ayda cəmləşdiyindən ən sevimli bayramımızın xətrinə Boz ayın bozarıb-qızaran şıltaqlığına dözürük. Necə deyərlər, yüz acını yeyərlər bir şirinin xətrinə...

Həm də fikir vermisinizsə, 2-3 gündür təbiətin, elə insanların da əhvalına xoş gələn külək əsir. Bunu külək deyil, "yel", yaxud "meh" adlandırmaq istəyirəm. Xalq dilində "vədə yeli" ifadəsi də var ki Novruz ərəfəsində əsir. İnanca görə, bu yel qışın sərtliyini "qovub" aparır, əvəzində mülayim bahar mehini gətirir. Bu yel ələlxüsus aran yerlərində sanki ağacları "qıdıqlayıb" oyatmağa çalışır, hətta quşların "repertuar"ını dəyişdirir. Xətai babamız "Bahariyyə" məsnəvisində yazdığı kimi:



*...Quşlar qamusu fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü...*

*Bülbül oxudu süfati-hicran,*
*Dəryada dürr oldu əbri-neysan.*

*Durna uçuban həvayə düşdü,*
*Laçın oluban ovayə düşdü...*

Diqqət edin, heç vaxt cəlayi-vətən olmayan sərçələr artıq bahar nəğməsinin "uvertüra"sını səsləndirməyə başlayıblar. Dan yeri də sərçələrin yaşamaq həvəsimizi artıran nəğmələri ilə sökülür... Nərgizin, novruzgülünün qarın əriməsini gözləməyə səbirləri çatmır, baharı müjdələmək üçün sanki yarışırlar...

Dünən (21 fevral) ilaxır çərşənbələrin ilki – Su çərşənbəsini qeyd etdik. Mifik düşüncədə su həyat, dirilik, sağlamlıq və xoşbəxtlik mənbəyi sayılır. Su çərşənbəsi xalq arasında həm də "əzəl çərşənbə", "gözəl çərşənbə", "gül çərşənbə" və s. adlandırılır. Xalqımızın inamında suyun rəmzləşməsi onun əcdad hesab edilməsi, and yeri olması ilə də əlaqələndirilir. Təsadüfi deyil ki, əski çağlardan insanlar daha çox çay qıraqlarında, vadilərdə məskən salıblar. Hazırda dünyanın bir çox böyük şəhərləri çay ətrafında, dənizlərin sahillərindədir. Atalarımız deyib ki, "Sulu el abadan, susuz el viran olar". Bu da insan həyatında, təbiətdə suyun əhəmiyyətini dərk etməyə imkan verir.

Azərbaycan folklorunda su əzəli, əbədi həyat, ölümsüzlük, dirilik, paklıq rəmzi sayılır. Su ilə bağlı müxtəlif məzmunlu deyimlər də bunu təsdiq edir: "Sucan ömrün olsun", "Su kimi duru olasan", "Su kimi paka çıxasan", "Su qədər əziz olasan" və s. Su həm də əhəmiyyətinə görə yalnız hava ilə müqayisə olunur. Təəssüf ki, şahidi olduğumuz qlobal istiləşmə şirin (içməli) su problemini də bərabərində gətirir. Hazırda su qıtlığı bəşəriyyətin ən ciddi problemlərindən biri, bəlkə də birincisidir...

Dədə Qorqudumuzun bir alqışında dediyi kimi, "Qamən axan görklü suyumuz qurumasın"... Boz ay bizə yalnız öz mülayim, mehriban üzünü göstərsin.

Su çərşənbəniz mübarək!

**Fariz Yunisli**

# Romansları ilə məşhurlaşan, həkiminə əsər həsr edən bəstəkar

## Sergey Raxmaninov – 150

Rus klassik musiqisinin görkəmli nümayəndələrindən söz düşəndə, ilk xatırlananlardan biri də bəstəkar, pianoçu və dirijor Sergey Raxmaninovdur. O, bənzərsiz əsərləri ilə də dünyanın musiqi salnaməsinə solmaz səhifələr yazıb. Bu il bəstəkarın anadan olmasının 150 illiyidir.



Sergey Vasilyeviç Raxmaninov 1 aprel 1873-cü ildə Rusiyanın Novqorod quberniyasında musiqiçi ailəsində dünyaya göz açıb. Babası Arkadi Aleksandroviç həvəskar pianoçu və bəstəkar olub. Atası da musiqi ilə maraqlanıb. Ona görə də Sergey erkən çağlardan musiqiyə maraq göstərib. Fortepiano dərsləri üzrə ilk müəllimi isə anası olub. O, xatirələrində yazır ki, ilk əvvəllər musiqidən heç xoşu gəlməzmiş... Ancaq babası onda musiqiyə dərin maraq yarada bilir. Bir müddət sonra babası ilə fortepianonu birgə ifa edirlər. Sergey Raxmaninov 8 yaşında valideynləri ilə birgə Sankt-Peterburq şəhərinə köçürlər. 1882-ci ildə sənədlərini Sankt-Peterburq Konservatoriyasına verir. O, aşağı yaş fortepiano sinfinə qəbul edilir. Qeyri-adi yaddaş və musiqi duyumu olan Sergey 18 yaşında fortepiano sinfi üzrə məşğələləri uğurla başa vurur. İfaçılıq və bəstəkarlıq fəaliyyətinə görə qızıl medalla təltif edilir. Buraxılış imtahanı üçün 17 günə bir aktlı "Aleko" (Puşkinin "Qaraçılar" poeması üzrə) operasını bəstələyib təqdim edir. Opera Moskva Konservatoriyasının buraxılış komissiyası tərəfindən bəyənilir və yüksək qiymətləndirilir. İmtahanda iştirak edən dahi bəstəkar Pyotr Çaykovski bu əsərə görə ona üç üstəgəllə "beş" verir. Bir il sonra 19 yaşlı bəstəkarın operası Böyük Teatrda səhnəyə qoyulur.

Bu uğur Sergey Raxmaninova əlavə yaradıcılıq ruhu bəxş edir. Ancaq o, bu uğurdan arxayınlaşmır, daim yaradıcılıq axtarışları aparır. Buna baxmayaraq, gənc bəstəkarın 1-ci simfoniyası dinləyici və tənqidçilər tərəfindən birmənalı qarşılanmır. O, bu tənqiddən bərk sarsılır. Məşhur həkim və psixoloq N.V.Dal ona məsləhətlər verir. Bundan sonra özünə gələ bilir. Minnətdarlıq olaraq bəstəkar 2-ci fortepiano konsertini həmin həkimə həsr edir. Sonra bəstəkar qısa vaxt ərzində "Sıldırım" simfonik fantaziyası, iki fortepiano üçün süita, "Musiqi anları", "Prelüdiya do-diyez minor", "Yanımda oxuma, gözəl", "Sirli gecənin susqunluğu", "Adacıq", "Yaz suları" romanslarını və bir sıra başqa əsərlərini yazır. Həmin ərəfədə onun sevimli müəllimi P.Çaykovski 1893-cü ildə vəfat edir. O, dahi bəstəkarın ölümünə fortepiano, skripka və violonçel üçün "Dahi sənətkarın xatirəsinə" hüznlü triosunu yazır.

S.Raxmaninov 1897-ci ildə Savva Momontovun Moskva Xüsusi Rus Operasına dəvət olunur. O, burada tamaşalara dirijorluq edir. Bununla da onun beynəlxalq ifaçılıq karyerası başlayır. Bəstəkarın xarici ölkələrdə ilk çıxışı 1899-cu ildə Londonda reallaşır. Bir il sonra İtaliyada çıxış edir. Sonra məşhur müğənni Fyodor Şalyapinlə bir ansamblda iştirak edir. S.Raxmaninov 1904-cü ildə Böyük Teatrda dirijor kimi işə qəbul olunur. O, bu teatrda uzun müddət fəaliyyət göstərir.

1917-ci ildə Rusiyada Oktyabr inqilabı baş verir. Ardınca hərbi çevriliş olur. Bolşeviklər hakimiyyəti ələ alırlar. Bir çox yaradıcı insanlar kimi, Sergey Raxmaninov da siyasətdən və inqilabi işlərdən uzaq durur. Bütün bunlara baxmayaraq, o, vətəni üçün narahatlıq keçirir. Bolşeviklərin həyata baxışları ilə barışa bilmədiyinə görə də Rusiyanı birdəfəlik tərk edir. O, əvvəlcə Danimarkaya gedir. Bir il burada yaşayır və çoxsaylı konsertləri ilə ictimaiyyət qarşısında çıxış edir. 1918-ci ildə Amerikaya köçüb Rod-Aylend ştatında məskunlaşır. Providens şəhərciyində ilk konsertini verir. Tamaşaçıların sevgisini qazanan bəstəkar 25 il bu şəhərdə yaşayıb-yaradır. Amerikada çıxış edən xarici ifaçılar arasında heç kimə nəsib olmayan uğur qazanır.

Musiqisevərlər, xüsusilə də sənətşünaslar S.Raxmaninovu "gecikmiş romantik" adlandırıblar. Araşdırmalarda qeyd edilir ki, o, bir müddət müasir musiqinin yeniləşmə meyillərindən uzaq düşür. Əsərlərində daha çox romantik dövrdən miras qalan ifadə vasitələrinə müraciət edir. Yaratdığı nikbin və faciəvi obrazlar insan qəlbinin ən kövrək hisslərinə toxunur.

Bəstəkar mühacir kimi yaradıcılıq fəaliyyəti dövründə dirijorluq fəaliyyəti ilə, demək olar ki, məşğul olmayıb. Çox nadir hallarda öz əsərləri ifa olunarkən dirijorluq edib. O, Boston simfonik orkestri və Sinsinnati şəhər orkestrinin rəhbəri postuna dəvətlər alsa da, razılıq verməyib.

S.Raxmaninov II Dünya müharibəsi illərində faşizmlə mübarizə aparan vətəninə yardım göstərmək məqsədilə ABŞ-da silsilə konsertlər verir. Yığılan pulları sovet ordusunun fonduna köçürür.

Bəstəkarın yaradıcılıq qalereyasında 80-dən çox romans, konsert, simfoniya, prelüd, etüd, opera yer alıb. Müəllifin romansları da ona böyük şöhrət qazandırıb. "Burada yaxşıdır", "Yanımda oxuma, gözəl", "Bahar suları", "Yuxu" və digər romansları dünya vokal musiqi xəzinəsinə daxil edilib.

Sergey Raxmaninov 28 mart 1943-cü ildə, 70 yaşında Nyu-Yorkda vəfat edib, şəhərdəki rus qəbiristanlığında dəfn olunub.

**Savalan Fərəcov**

## Xatirə təqvimi — 21-23 fevral

### Azərbaycan

**21 fevral 1906** – Əməkdar incəsənət xadimi, kinorejissor Həbib Ələkbər oğlu İsmayılov (1906 – 31.12.1966) Naxçıvanda doğulub. Azərbaycan kinosunda xüsusi yeri olan "Ögey ana" (1958), "Böyük dayaq" (1962) filmlərinə quruluş verib.

**21 fevral 1921** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Böyükağa Məşədi oğlu Mirzəzadə (1921 – 3.11.2007) Bakının Fatmayı kəndində doğulub. Yaradıcılığa tematik tablolarla başlayan rəssam portret janrında da uğurlu nümunələr yaradıb, teatr tamaşalarına bədii tərtibat verib.

**21 fevral 1921** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Sadıqzadə (1921 – 20.12.2014) Xızıda, tanınmış yazıçı Seyid Hüseyn və şairə Ümgülsümün ailəsində anadan olub. "Nizami Gəncəvi və dünya mədəniyyəti" silsiləsi, "1937-ci il repressiyasının qurbanları", "Hüseyn Cavidin aləmi" triptixi və s. əsərlərin müəllifidir.

**21 fevral 1997** – Görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov (21.12.1923 – 1997) dünyasını dəyişib.

**21 fevral 1999** – Prezident Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında sərəncam imzalayıb.

**21 fevral 2012** – Bakı şəhərində xalq qəhrəmanı Koroğlunun abidəsinin (heykəltəraş – Xalq rəssamı Tokay Məmmədov) açılışı keçirilib. Abidə Prezident İlham Əliyevin 3 dekabr 2009-cu il və 24 dekabr 2010-cu il tarixli sərəncamlarına əsasən yaradılıb.

**22 fevral 1869** – Görkəmli yazıçı, dramaturq, naşir Cəlil Məmmədqulu oğlu Məmmədquluzadə (1869 – 4.1.1932) Naxçıvanda doğulub. Realist hekayələri ("Poçt qutusu", "Qurbanəli bəy"), povest ("Danabaş kəndinin əhvalatları") və dram əsərləri ("Ölülər", "Dəli yığıncağı", "Anamın kitabı") ilə milli ədəbiyyata misilsiz töhfələr verib. "Molla Nəsrəddin" jurnalı (1906) ilə Azərbaycanda satirik jurnalistikanın əsasını qoyub.

**22 fevral 1898** – Əməkdar elm xadimi, ədəbiyyatşünas alim, akademik Feyzulla Səməd oğlu Qasımzadə (1898 - 29.3.1976) anadan olub.

**22 fevral 1914** – Xalq rəssamı, heykəltəraş Cəlal Məhərrəm oğlu Qaryağdı (1914-2001) Şuşa şəhərində anadan olub. Azərbaycanın bir sıra mədəniyyət və ictimai xadimlərinin heykəl və büstlərinin (N.Nərimanov, M.Ə.Sabir və s.) müəllifidir.

**22 fevral 1917** – Yazıçı-dramaturq, publisist Yusif Əhmədulla oğlu Əzimzadə (1917-1984) anadan olub. "Çiçəklər səltənəti", "Anacan", "Nəsrəddin" və s. pyeslərin müəllifidir, rus ədəbiyyatından tərcümələr edib.

**22 fevral 1924** – Xalq artisti, görkəmli bəstəkar Süleyman Əyyub oğlu Ələsgərov (1924 – 21.1.2000) Şuşada doğulub. "Ulduz", "Özümüz biləri̇k", "Milyonçunun dilənçi oğlu", "Həmişəxanım" operettalarının, "Bahadır və Sona", "Solğun çiçəklər" operalarının, mahnıların müəllifidir.

**22 fevral 1950** – Əməkdar rəssam Asif Əli oğlu Məmmədov (1950 – 4.11. 2002) Gəncədə doğulub. Gəncə Dövlət Dram Teatrının baş rəssamı olub.

**22 fevral 2019** – Prezident İlham Əliyev ustad xanəndə, Xalq artisti Hacıbaba Hüseynovun 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**22 fevral 2021** – Xalq artisti, tanınmış müğənni Yalçın İmran oğlu Rzazadə (15.12.1939 – 2021) vəfat edib.

**23 fevral 1909** – Tanınmış ədəbiyyatşünas alim, akademik Həmid Məmmədtağı oğlu Araslı (1909 – 20.11.1983) Gəncədə anadan olub.

**23 fevral 1911** – Xalq artisti, rejissor, Azərbaycan musiqili teatrının yaradıcılarından Şəmsi Bədəl bəy oğlu Bədəlbəyli (1911 – 23.5.1987) Şuşada doğulub. Filarmoniyanın, Musiqili Komediya Teatrının bədii rəhbəri və direktoru işləyib. Azərbaycan Teatr Cəmiyyətinin (indiki Teatr Xadimləri İttifaqı) sədri olub. "O qızı tapın", "Axırıncı aşırım" və s. filmlərdə çəkilib.

**23 fevral 1928** – Akademik, coğrafiyaşünas, tarix və toponimika sahəsində əsərlərin müəllifi Budaq Əbdüləli oğlu Budaqov (1928-2012) Ermənistan SSR Zəngibasar rayonu Çobankərə kəndində doğulub.

**23 fevral 1938** – Tarix elmləri doktoru, etnoqraf Qəmərşah Cavadov (1938-2005) Quba rayonunun Aydınkənd kəndində anadan olub.

**23 fevral 1943** – Şair, tərcüməçi, publisist Səyavuş Əli oğlu Sərxanlı (1943-2005) anadan olub.

**23 fevral 1952** – Əməkdar artist Əlican Süleyman oğlu Əzizov (1952 – 10.2.2021) anadan olub. Gəncə Dövlət Dram Teatrında, Nizami Poeziya teatrında aktyor kimi çalışıb, filmlərdə çəkilib.

**23 fevral 1999** – Prezident Heydər Əliyev böyük yazıçı və dramaturq Cəfər Cabbarlının 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**23 fevral 2003** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Həsənağa Turabov (24.3.1938 – 2003) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, teatra rəhbərlik (1987-2001) edib.

**23 fevral 2010** – Prezident İlham Əliyev dahi bəstəkar Üzeyir Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**23 fevral 2022** – Xalq artisti, qaboy ifaçısı Kamil Cəlil oğlu Cəlilov (29.1.1938 – 2022) vəfat edib. S.Rüstəmov və Ə.Bakıxanov adına xalq çalğı alətləri, "Dan ulduzu" instrumental ansambllarının solisti olub.

### Dünya

**21 fevral** Beynəlxalq Ana Dili Günüdür (International Mother Language Day). 1999-cu ildə UNSECO tərəfindən milli dillərin və mədəni müxtəlifliyin qorunması məqsədilə təsis edilib.

**21 fevral 1925** – Amerika rejissoru və ssenaristi Sem Pekinpa (David Samuel Peckinpah; 1925-1984) anadan olub. Kinoda vestern janrının tanınmış simalarındandır.

**22 fevral 1788** – Alman filosofu, irrasionalizmin banilərindən biri Artur Şopenhauer (Arthur Schopenhauer; 1788-1860) anadan olub.

**22 fevral 1921** – İtalyan aktrisası Cülyetta Mazina (Giulietta Masina; 1921-1994) anadan olub.

**23 fevral 1685** – Alman bəstəkarı Georq Hendel (Georg Friedrich Händel; 1685-1759) anadan olub.

**23 fevral 1878** – Polyak əsilli rusiyalı rəssam Kazimir Severinoviç Maleviç (1878-1935) Kiyevdə doğulub. Təsviri sənətdə abstraksionizmin tanınmış nümayəndələrindən biridir.

**23 fevral 1878** – Tatar yazıçı-publisisti Qayaz İshaki (1878-1954) anadan olub. Rusiya müsəlmanlarının liderlərindən olub, sovetləşmədən sonra Almaniya və Türkiyədə yaşayıb, Ankarada vəfat edib.

**23 fevral 1883** - Alman filosofu və psixoloqu, ekzistensializmin əsas simalarından biri Karl Yaspers (Karl Theodor Jaspers; 1883-1969) anadan olub.

**Hazırladı: V.Orxan**

# Şalyapinin 150 illiyinə həsr edilmiş konsert

Bakıdakı Rus evində məşhur opera müğənnisi Fyodor Şalyapinin (1873-1938) anadan olmasının 150 illiyinə həsr edilmiş konsert olub.

Rusiya İnformasiya və Mədəniyyət Mərkəzindən (RİMM) verilən məlumata görə, konsert Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) təşkilati dəstəyi ilə keçirilib.

Tədbirin qonaqları arasında Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Boçarnikov, Milli Məclisin deputatı Rauf Əliyev, bir sıra ölkələrin diplomatik korpusunun nümayəndələri, yaradıcı ziyalıların, mədəniyyət təşkilatlarının, həmvətənlər cəmiyyətlərinin təmsilçiləri olub.

BMA-nın müəllimi sənətşünaslıq üzrə fəlsəfə doktoru Alyona İnyakina tərəfindən təşkil edilmiş konsert proqramında Əməkdar artist Anton Ferştandt, Dilarə Kərimova, Ülviyyə Əliyeva, Məryəm Yusifova, Fərhad Ələkbərov, Ruslan Persan, Kamilla İmanova, Teymur Kazımov, həmçinin akademiyanın tələbələri Emin İsmayılov, Aqşin Xudaverdiyev, Atif Qarabaği çıxış ediblər.



Fyodor Şalyapin Böyük Teatr (Moskva), Mariinski Teatrı (Sankt-Peterburq), Metropoliten Opera (Nyu-York) kimi məşhur teatrların məbədlərinin səhnələrində çıxış edb. İfaçılıqla yanaşı, rəssamlıq və heykəltəraşlıqla da məşğul olan vokalçı, həmçinin bir neçə filmdə çəkilib. Bəstəkarlar Sergey Prokofyev və Anton Rubinşteyn onun istedadının pərəstişkarları idi. Maksim Qorki onu "rus incəsənətində ayrıca bir dövr" adlandırmışdı.



# Brüsseldə “Xocalı: yaralı ruhlar”

## Reza Deqatinin sərgisi açılıb

Brüsseldə məşhur Azərbaycan əsilli fotojurnalist Reza Deqatinin “Xocalı: yaralı ruhlar” adlı fotosərgisi açılıb. Ölkəmizin Belçikadakı səfirliyi tərəfindən təşkil edilən sərginin açılışında əvvəlcə Türkiyədə, Suriyada və Cənubi Azərbaycanın Xoy şəhərində baş vermiş dağıdıcı zəlzələlər nəticəsində həyatını itirmiş insanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Səfir Vaqif Sadıqov çıxış edərək, 1992-ci il fevralın 26-na keçən gecə erməni silahlı dəstələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımı haqqında məlumat verib. Bildirib ki, 613 mülki şəxsin öldürüldüyü, o cümlədən 8 ailənin tamamilə yox edildiyi Xocalı qətilamı insanlığa qarşı cinayətdir.

Reza Deqati bir vaxtlar əsas sənəti olan memarlığı atıb fotojurnalistika ilə məşğul olmasının məhz insanlığa sevgisindən irəli gəldiyini söyləyib, həqiqətlərin mədəniyyət və sənət vasitəsilə yayılmasının ən qüvvətli vasitə olduğuna inandığını qeyd edib. O, insanların ölümünə, binaların, tarixi abidələrin, həyati infrastrukturun dağılmasına səbəb olan müharibələrin, təbii fəlakətlərin, böhranların sağ qalan insanların yaddaşlarında sağalmayan yaralar açdığını bildirib.

Tədbir çərçivəsində dahi bəstəkarımız Fikrət Əmirovun nəvəsi, istedadlı pianoçu-bəstəkar Nəzrin Əfəndiyevanın Belçikada yaratdığı “Trio Manestri”nin Xocalı faciəsinin qurbanlarının xatirəsinə həsr olunmuş konsert keçirilib. Trionun (pianoda Nəzrin Əfəndiyeva, skripkada Mari-Karmen Suarez, fleytada Astrid Gallez) ifasında Azərbaycan xalq mahnılarını, F.Əmirovun, A.Rozmanın, K.Azedianın, L.Einaudinin, V.Azaraşvilinin bəstələrini, eləcə də N.Əfəndiyevanın “613 xatirəsinə” və xüsusilə bu tədbir üçün ərsəyə gətirdiyi “Azərbaycan miniatürləri” kompozisiyaları səsləndirilib.

Açılış mərasiminə qatılan diplomatik korpusun nümayəndələri, Avropa İttifaqının rəsmiləri, Belçikanın mədəniyyət, mətbuat və akademik dairələrinin nümayəndələri sərgi ilə maraqla tanış olublar.

# “Anadolu atəşi”nin Bakı şousunda zəlzələ qurbanları anılıb

Fevralın 19-da “Baku Crystal Hall”da Türkiyənin dünyaca məşhur rəqs kollektivi – “Anadolu atəşi”nin möhtəşəm rəqs şousu təşkil olunub.




Əvvəlcə Türkiyədə baş vermiş təbii fəlakəti əks etdirən videoçarx nümayiş olunub və “Anadolu atəşi”nin kollektivi faciə qurbanlarının xatirəsini rəqs kompozisiyası ilə yad edib.

Ansamblın şou-proqramına yüksək peşəkarlıqla ifa olunan milli rəqslər, türk folkloru, dünya xalqlarının rəqs nümunələri, səhnələşdirilmiş rəqs kompozisiyaları, qılıncoynadanların, nağaraçalanların məharətli çıxışları, habelə rəngarəng səhnə tərtibatı, solo nömrələr, kütləvi dramatik səhnələr daxildir.

Şouda həmçinin qədim əfsanələri “canlandıran” və rəqslə müşayiət olunan dekorasiyalar nümayiş olunub.

Azərbaycanda indiyədək bir neçə dəfə çıxış edən “Anadolu atəşi”nin növbəti şousu da rəğbətlə qarşılanıb.

Qeyd edək ki, Türkiyədəki təbii fəlakətlə əlaqədar vaxtı dəyişdirilən (daha öncə 8 fevrala nəzərdə tutulmuşdu) şou-proqramdan əldə olunan vəsait zəlzələdən zərərçəkənlərə ayrılacaq.

2002-ci ildən qastrol səfərlərinə başlayan qrup dünyanı gəzib. 106 ölkədə konsert verən “Anadolu atəşi” dünya səviyyəli tədbirlərdə (Bəhreyndə “Formula-1” yarışları, 2008-ci il Pekin Olimpiadası və s.) də bədii proqram təqdim edir.

# 131 ölkədən qonaq gəlib...



2023-cü ilin yanvar ayında Azərbaycana dünyanın 131 ölkəsindən 119,1 min nəfər əcnəbi vətəndaş və vətəndaşlığı olmayan şəxs gəlib. Bu, 2022-ci ilin yeni ayı ilə müqayisədə 1,6 dəfə çoxdur.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, gələnlərin 33,8 faizi Rusiya Federasiyası, 21,1 faizi Türkiyə, 9,3 faizi İran, 5,6 faizi Gürcüstan vətəndaşları olub. Hindistan (3,4 faiz), Birləşmiş Ərəb Əmirlikləri (3,2 faiz), Pakistan (2,7 faiz), Küveyt (2,1 faiz), Səudiyyə Ərəbistanı və Qazaxıstan (hər birindən 1,8 faiz) vətəndaşları da ötən ay Azərbaycana gələnlərin ilk onluğunda yer alıblar.

Ötən ilin eyni dövrü ilə müqayisədə Pakistandan gələnlərin sayı 9,9 dəfə, Hindistandan – 8,6 dəfə, Qazaxıstandan – 3 dəfə, Gürcüstandan – 1,6 dəfə, Rusiya Federasiyasından –1,5 dəfə, Türkiyədən – 40,7 faiz, İrandan – 15,6 faiz artıb.

2022-ci ilin yanvar ayı ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 49 min, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 1,6 dəfə artaraq 4,3 min, Körfəz ölkələrindən gələnlərin sayı 29,3 faiz artaraq 21,3 min nəfər olub.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu “Manas” haqqında tədqiqatı təkrar çap etdirib




Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ümumtürk mədəniyyətinin dünyada təbliği istiqamətində daha bir nəşr layihəsini həyata keçirib. Fond tərəfindən manasşünas alim, tanınmış şair Adil Cəmilin “Manas eposu və türk dastançılıq ənənəsi” kitabı Azərbaycan və qırğız dillərində çap etdirilib.

Üç fəsildən ibarət kitabda ümumtürk ədəbi-tarixi varisliyi kontekstində manasçılar və manasşünaslar, eyni zamanda türk dastançılığı ilə “Manas”ın ortaq motivləri kimi aktual ədəbi məsələlər tədqiqata cəlb olunub. “Parlaq imzalar” nəşriyyatında işıq üzü görən kitab Azərbaycanda “Manas” eposunun tədqiqinə həsr edilmiş ilk monoqrafiyadır.

Layihənin ideya və ön söz müəllifi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevadır. Ön sözdə ikidilli nəşrin ümumtürk mədəni dəyərlərinin yaşadılması, mənəvi sərvətlərin qorunması baxımından əhəmiyyəti vurğulanıb: “Türk xalqlarının dil və ədəbiyyatının özülü olan qədim dastanların müasir dövrdə elmi tədqiqi türklərin özünüdərk prosesinə təkan verir. Bu baxımdan, əminəm ki, günümüzün tələblərinə uyğun olan bu kitab oxucuların qədim milli dəyərlərimizi daha da yaxından kəşf etməsinə öz təsirini göstərəcəkdir”.

Qeyd edək ki, tədqiqat əsərinin Azərbaycan dilində elmi redaktoru professor Elməddin Əlibəyzadə, məsləhətçisi akademik Nizami Cəfərovdur. Qırğız dilindəki mətnin tərcüməçisi Mukan Asanaliev, elmi redaktor Abdıldacan Axmataliyevdir. Nəşrdə həmçinin Teodor Gertsenin müəllifi olduğu “Manas” dastanına həsr edilmiş illüstrasiyalar yer alıb.

Qeyd edək ki, Adil Cəmilin “Manas” eposu haqqında monoqrafiyası 2002-ci ildə Azərbaycan, 2012-ci ildə qırğız dilində ayrılıqda çap olunub.

# Ər-Riyaddakı forumda Türkiyəyə və Suriyaya yardım məsələsi müzakirə olunub

## Avropa İttifaqı da donor konfransı təşkil edəcək



Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Kral Salman Humanitar Yardım və Bərpa Mərkəzinin (“KSRelief”) təşkilatçılığı ilə 20-21 fevralda keçirilən 3-cü Beynəlxalq Humanitar Forumda dağıdıcı zəlzələdən zərər çəkmiş Türkiyə və Suriyaya yardımlar müzakirə olunub.

Forumda Səudiyyə Ərəbistanının xarici işlər naziri şahzadə Faysal bin Fərhan, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Hissein Brahim Taha, BMT baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukok, Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) baş direktoru Antonio Vitorino, BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandi, UNICEF-in icraçı direktoru Henrietta Fore çıxış ediblər.

Humanitar yardım üzrə hökumət və qeyri-hökumət təşkilatlarının təqdimatında Səudiyyə İnkişaf Fondu, Səudiyyə Qızıl Aypara Təşkilatı, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri dünyada təbii fəlakət və silahlı münaqişə zonalarına humanitar yardımların artırılmasının zəruriliyini vurğulayıblar. Bu kontekstdə Türkiyə və Suriyada zəlzələdən zərərçəkənlərə yardımların davam edəcəyi diqqətə çatdırılıb. Tədbirdə humanitar yardımın çatdırılması üçün qanunvericilik, informasiya və logistik mexanizmlər üzrə dialoqun təşviqi məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

***

Avropa İttifaqı (Aİ) isə martın 16-da Brüsseldə Türkiyə və Suriyada zəlzələdən zərərçəkənlərə kömək məqsədilə donor konfransı təşkil edəcək. Bu barədə Aİ Komissiyasından bildirilib.

Donor konfransının məqsədi Türkiyə və Suriyada zəlzələdən zərər çəkənlərə beynəlxalq ictimaiyyətin maliyyə yardımını səfərbər etməkdir.

Yüksək səviyyəli konfrans Aİ-yə üzv ölkələrlə yanaşı, qonşu dövlətlər, BMT-yə üzv ölkələr, beynəlxalq maliyyə institutları və digər qurumlar üçün açıq olacaq.

Qeyd edək ki, hazırda Avropa İttifaqına İsveç sədrlik edir və donor konfransına təşkilatçılığı da bu ölkə həyata keçirəcək. Eyni zamanda İsveçin NATO üzvlüyünə namizədlik məsələsinə dair Türkiyə ilə münasibətlərində problemlər var.



# “Qərb cəbhəsində yenilik yoxdur”

## BAFTA-nın “ən yaxşı film” mükafatını qazanıb

Alman rejissor Edvard Bergerin müharibə əleyhinə filmi – “Qərb cəbhəsində yenilik yoxdur” kinodramı Britaniya Kino və Televiziya Sənəti Akademiyasının (BAFTA) “ən yaxşı film” mükafatını qazanıb.

76-cı BAFTA mükafatının sahibləri fevralın 19-da Londondakı “Southbank Center”də Kral festival zalında keçirilən mərasimdə elan edilib.

Erix Maria Remarkın məşhur romanı əsasında çəkilən film mükafata ümumilikdə 14 nominasiya üzrə irəli sürülmüşdü və onlardan 7-də qalib olub. Ekran əsəri “ən yaxşı film” nominasiyasından savayı “ən yaxşı rejissor işi”, “ən yaxşı qeyri-ingilis dilində film” (alman), “ən yaxşı uyğunlaşdırılmış ssenari” (ssenari müəllifləri Lesli Pattreson, İan Stokell), “ən yaxşı operator işi” (Ceyms Frend), “film üçün ən yaxşı musiqi” (bəstəkar Folker Bertelman) və “ən yaxşı səs” nominasiyalarında da BAFTA heykəlciyi qazanıb.

Filmin premyerası 2022-ci il 12 sentyabrda Toronto (Kanada) kinofestivalında keçirilib. Almaniyada kinoteatrlarda yayımı 29 sentyabrda, “Netflix” platformasında dünya premyerası isə 28 oktyabrda olub.

Qeyd edək ki, alman rejissorun filmi ümumilikdə 9 nominasiya (o cümlədən “ən yaxşı xarici dildə film”) üzrə “Oskar” mükafatına da namizəddir. Amerika Kino Akademiyasının 95-ci “Oskar” mərasimi martın 12-də keçiriləcək. “Ən yaxşı xarici dildə film” adı uğrunda “Argentina, 1985” (Santyaqo Mitre), “Sakit adam” (Kolm Bayrid), “Yaxın” (Lukas Dont) və “İa” (Yerji Skolimovski) ekran əsərləri də yarışacaq.

“Qərb cəbhəsində yenilik yoxdur” bundan öncə ABŞ-da ikinci nüfuzlu kino mükafatı sayılan “Qızıl qlobus”a nominant olsa da, uğur qazanmayıb. Hollivud Xarici Jurnalistlər Birliyinin təsis etdiyi “Qızıl qlobus”un builki mərasimində (10 yanvar) xarici dildə (qeyri-ingilis) ən yaxşı ekran əsəri kimi argentinalı rejissor Santyaqo Mitrenin filmi (“Argentina, 1985”) seçilib.

**V.Kamal**




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 410 il əvvəl...



**21 fevral 1613-cü ildə** rus boyarları çox götür-qoy etdikdən sonra Mixail Romanovu çar elan ediblər. Rüriklər sülaləsinin süqutundan (1605) sonra Rusiya çarlığında başlanan hərc-mərclik və dağılma prosesinin qarşısı alınıb. Romanovların hakimiyyəti üç əsr – 1917-ci ilədək davam etdi.

### 105 il əvvəl...

**23 fevral 1918-ci ildə** Tiflisdə Zaqafqaziya Seyminin ilk iclası keçirilib. Seymdəki üç əsas partiya – gürcü sosial-demokratlar (menşeviklər) 32, Azərbaycandan “Müsavat” partiyası 30, ermənilərin “Daşnaksütyun” partiyası 27 deputatla təmsil olunmuşdu. Seymdə gürcü və ermənilərin bir neçə kiçik partiyası, həmçinin azərbaycanlı (müsəlman) deputatların “İttihad”, “Hümmət”, müsəlman sosialistlər qrupları (cəmi 14 nəfər) yer almışdı. Azərbaycanlı deputat fraksiyasına (44 nəfər) Məhəmməd Əmin Rəsulzadə başçılıq edirdi.

### 79 il əvvəl...

**23 fevral 1944-cü ildə** Stalinin əmri ilə çeçen və inquşların Orta Asiyaya deportasiyası başlanıb. Rusiya Federasiyası tərkibində Çeçen-İnquş Muxtar Respublikası ləğv edilib. Sovet rəhbərliyi deportasiyanı çeçen və inquşların guya faşist Almaniyasına rəğbəti ilə əsaslandırmışdı. Ümumilikdə 500 minə yaxın insan köçürülmüşdü. 1956-cı ildə çeçen və inquşlara reabilitasiya verildi, bir il sonra RF tərkibində Çeçen-İnquş Muxtar Respublikası bərpa edildi. 1992-ci ildə iki ayrı muxtariyyətə bölündü.

### 35 il əvvəl...



**22 fevral 1988-ci ildə** Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları zəminində başlanan Dağlıq Qarabağ münaqişəsində ilk toqquşma baş verib. Erməni millətçiləri Əsgəran qəsəbəsi yaxınlığında Ağdam rayonundan olan iki azərbaycanlı gənci qətlə yetiriblər. Həmin gün Bakıda ermənilərin Qarabağa iddialarına etiraz olaraq mitinq keçirilib.

### 31 il əvvəl...

**21 fevral 1992-ci ildə** Azərbaycan Fransa və Polşa ilə diplomatik əlaqələr qurub. Polşa Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 27-də, Fransa 1992-ci il yanvarın 3-də tanımışdı. Fransa Türkiyədən sonra Bakıda səfirlik açan ikinci ölkə oldu.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 548
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641